RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 185 (9352) 30 AVQUST 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Zəfər Günün mübarək, qardaş!

### Dünyanın söz və güc sahiblərindən birinə çevrilən Türkiyə şanlı tarixinin ən qürurlu səhifəsini iftixarla qeyd edir

Bu gün qardaş Türkiyə Cümhuriyyəti Qurtuluş Savaşında qazanılan Böyük Qələbənin 101 illiyini təmtəraqla qeyd edir, Zəfər bayramının və Silahlı Qüvvələr Gününün sevincini yaşayır.

Böyük Qazi, Xilaskar Mustafa Kamal Atatürkün baş komandanlığı ilə Samsundan başlayan və 1922-ci il avqustun 30-da Dumlupınarda Zəfərlə bitən Qurtuluş Savaşı bütövlükdə ümumtürk tarixinin şanlı səhifəsidir desək yanılmarıq.

Bu Zəfər bayramı qardaş ölkənin tarixində Birinci Dünya müharibəsində məğlubiyyətdən sonra işğalçı dövlətlər tərəfindən Türkiyə torpaqlarının bölüşdürülməsi planlarının qarşısının alınması - istiqlal və qurtuluş naminə savaşın qalibiyyətlə başa çatması ilə əlamətdardır. Böyük sərkərdə və dövlət xadimi Mustafa Kamal Atatürkün çağırışı ilə silaha sarılan igid oğullar 1919-1922-ci illərdə davam edən Qurtuluş Savaşının ən həlledici mərhələsində təkcə yadellilərə deyil, bütün dünyaya türkün əzəmətini, qəhrəmanlığını nümayiş etdiriblər. Mustafa Kamal Atatürkün başçılıq etdiyi vətənpərvərlər bugünkü Türkiyə Cümhuriyyətini qurmaq üçün böyük mücadilə və qurbanlar veriblər.

Qurtuluş savaşından sonra Zəfər bayramı ilk dəfə 1923-cü il avqustun 30-da Afyonqarahisar, Ankara və İzmirdə qeyd edilib. Rəsmi olaraq Zəfər bayramı 1936-cı ilin may ayında elan olunub. 30 avqust Zəfəri türk xalqının və Türkiyənin tarixində yeni bir səhifə açıb. Bu Zəfər sayəsində Sevr sazişi tarixin zibilliyinə atılıb. İrəlidə bütün vətən torpağında suverenliyi bərqərar etmək missiyası dururdu. Bir il sonra, 1923-cü il oktyabrın 29-da Mustafa Kamal Paşa Türkiyə Cümhuriyyətini elan etdi.

→ 3

## Heydər Əliyev İli - 2023

# Müstəqilliyin təməl daşı

### 32 il öncə Heydər Əliyevin tarixi təşəbbüsü ilə qəbul edilən bəyannamə azadlığa gedən yolun ilk hüquqi sənədi oldu

Onun çağırışını xalq ruh yüksəkliyi ilə qarşıladı. Həmin sessiyada dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Ulu Öndər 1991-ci il iyulun 19-da Kommunist Partiyasından çıxdı. O, SSRİ Nazirlər Kabineti partiya təşkilatına ərizəsində qeyd edirdi: "Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir... bütün bunlar "humanist ideologiyalı" sovet dövləti üçün adi haldır". Xalq imperiyanın bərpası üçün cəhd edənlərə Ulu Öndərin qəti etirazını razılıqla qarşıladı. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.



Avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı və Heydər Əliyevin irəli sürdüyü təşəbbüs əsasında qanunverici orqan "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. Bu, həqiqətən də Ulu Öndərin tarixi təşəbbüsü, Azərbaycanın müstəqilliyinin bərpası istiqamətində atılan ilk addım oldu.

→ 4

## İlham Əliyev həqiqəti olduğu kimi Emmanuel Makrona başa saldı

Avqustun 29-da Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında regiondakı vəziyyət, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması məsələsi müzakirə olunub.

Dövlətimizin başçısı bildirib ki, Ağdam-Xankəndi yolunun istifadəsinə məqsədyönlü şəkildə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən süni əngəllər yaradılır və bundan siyasi manipulyasiya məqsədilə istifadə edilir.

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan və qondarma rejim Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Ağdam-Xankəndi yolu ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Həmçinin Ermənistan rəhbərliyi Azərbaycan tərəfi ilə razılaşdırmadan dövlət sərhədi istiqamətində humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər gətirib ki, burada məqsəd siyasi möhtəkirlikdir.

Dövlətimizin başçısı Azərbaycanın Qarabağın erməni əhalisinin təmsilçilərinin reinteqrasiya məsələlərini müzakirə etmək üçün paytaxt Bakıya və Azərbaycanın digər şəhərlərinə dəvət etdiyini, ancaq onların bundan da imtina etdiklərini və məqsədyönlü şəkildə vəziyyətin guya humanitar gərginlik xarakteri daşıdığını təqdim etməyə çalışdıqlarını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər.

Eyni zamanda Prezident İlham Əliyev bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırılması üçün avtomobil karvanının yola düşdüyünü qeyd edib.

Prezident Emmanuel Makron vəziyyətin sabitləşdirilməsi və mövcud gərginliyin aradan qaldırılması üçün Fransanın da öz tərəfindən töhfə verməyə hazır olduğunu bildirib, Fransanın və Azərbaycanın aidiyyəti qurumlarının təmaslarının davam etdirilməsini təklif edib.

***Prezidentin Mətbuat Xidməti***

## Birliyə və inkişafa xidmət edən əməkdaşlıq

### Dostluq münasibətləri Azərbaycan dövlətinin Mərkəzi Asiya siyasətində yeni üfüqlər açır

Ortaq tarixi köklərə əsaslanan mədəniyyət amili daim diqqətdə saxlanılır, müasir dövrdə də bu sahənin müştərək zəmində inkişafı, cəmiyyətlərin ölkələrdəki yeni mədəniyyət tendensiyaları ilə yaxından tanışlığı, sadə dildə desək, əsrlər əvvəl olduğu kimi yenə də bir-birindən görüb-götürməsi üçün dövlətlər səviyyəsində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanda böyük uğurla keçirilmiş Özbəkistanın Mədəniyyət Günləri buna bir nümunədir. Həmin günlərdə təşkil olunan bir-birindən maraqlı proqramlarla Azərbaycan tamaşaçıları qardaş xalqın nümayəndələrinin yüksək ustalığına, istedadına bir daha şahid oldular.

→ 3

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməniəsilli şəxslər üçün humanitar yardım yola salıb

Avqustun 21-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti İdarəetmə Şurasının qərarına uyğun olaraq bəyanat imzalamışıq. Bəyanatımızın məqsədi irqindən, dinindən, milliyyətindən asılı olmayaraq hər bir insana yardımçı olmaqdır. Həmin bəyanatdan sonra bu məsələ diqqətimizdədir və hazırda humanitar yardım göndəririk. Qızıl Aypara Cəmiyyətinin rəhbər işçiləri, o cümlədən könüllülərimiz Ağdam-Xankəndi yoluna doğru irəliləyəcək.

→ 6

## Hərbi cinayətkarların keçə bilmədikləri keçid

### "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsi milli maraqlarımıza xidmət edir

İstər Ermənistan, istər Qarabağda olan separatçı rejimin rəhbərləri, istərsə də onlara vəd verib oyuna gətirənlər boşuna çaba göstərməsinlər. Azərbaycan Qarabağda yaşayan erməni sakinlərinə doğru yolu göstərib. Onların Qarabağda yaşayıb fəaliyyət göstərmələrinin yeganə yolu Azərbaycana reinteqrasiyadan keçir. Bu yol onlara xoşbəxt gələcək vəd edir.

→ 5



## "Şahdəniz" proqnozları doğruldu

### Yataqdan 200 milyardıncı kubmetr qaz hasil edildi

→ 7

## Əbədi qayıdışın Laçın ünvanı

Bu əlamətdar gündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva laçınlıların yanında olub, Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində mənzərəli terrasda və Bayraq meydanının qarşısında keçirilən Laçın Şəhəri Günü bayram şənliklərində iştirak ediblər.

Laçınlıları bayram münasibətilə təbrik edən Prezident deyib: Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz.

→ 6

## Fransa ənənəvi riyakarlığını davam etdirir

Öz gözündə tiri görməyib, özgə gözündə tük axtaran Fransanın, eləcə də digər dövlətlərin cəhdləri tarixin bütün dövrlərində nəticəsiz qalıb. Fransalı siyasilərin, Prezident Makronun erməni sevdasına uyub səsləndirdiyi pafoslu fikirləri, Vardanyanın saxta anonsları və Lixtenşteyn şahzadəsinin "jest"ləri də zaman-zaman qəbul etdikləri qətnamələr, verdikləri bəyanatlarla eyni taleni yaşayacaq, tarixin arxivində tozlanacaqlar.

→ 5

## B.S.Hüseynovun Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bünyad Səməd oğlu Hüseynov Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

## N.N.Məmmədovun Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nəsir Natiq oğlu Məmmədov Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

## Q.F.Gözəlovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qismət Füzuli oğlu Gözəlov Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

## Ə.A.Zeynallının Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əkrəm Akif oğlu Zeynallı Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

## H.S.Zeynalovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Həsən Sultan oğlu Zeynalov Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2023-cü il*

## Almaniya ilə hərbi tibb sahəsində ekspert danışıqları aparılıb

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında mövcud hərbi əməkdaşlıq proqramına əsasən, hərbi qulluqçularımız bu ölkədə "Tibb sahəsində ekspert danışıqları" mövzusunda keçirilən tədbirdə iştirak ediblər.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Hərbi tibb sahəsində qarşılıqlı təcrübə mübadiləsi və qabaqcıl metodların öyrənilməsi məqsədilə keçirilən səfər zamanı həmçinin maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 290** **QƏRAR** **Bakı şəhəri, 28 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli və "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2009-cu il 25 dekabr tarixli 201 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 iyun tarixli 188 nömrəli və 10 avqust tarixli 273 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissənin "d" bəndində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9-11-ci və 12-1-ci" sözləri "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4-11-ci, 13-cü və 21.7-ci" sözləri ilə əvəz edilsin;

1.2. 7-ci hissənin onuncu abzasından "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin abzasda "məlumatlar" sözü "məlumat və sənədlər" sözləri ilə əvəz edilsin;

1.3. 16-cı hissənin altıncı abzasından "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

1.4. 33-1-ci hissə üzrə:

1.4.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"33-1. Notariuslar daşınmaz əmlakın alqı-satqısı, pul vəsaitlərinin, qiymətli kağızların və ya digər əmlakın, habelə bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması, habelə hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanılmasının təşkil olunması, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı ilə əlaqədar əməliyyatlarla bağlı notariat hərəkətləri aparılarkən əməliyyatın predmeti olan əmlakın cinayət yolu ilə əldə edilməsi və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yarадan hallarda, həmçinin bu əməliyyatlar yüksək riskli zonaların vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin zonalarda olan şəxslərlə və ya onların vasitəsilə, eləcə də həmin zonalarda qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslərlə və ya "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə bağlı həyata keçirildikdə, yaxud xarici dövlətlərin siyasi nüfuzlu şəxslərinin əmlakı ilə bağlı olduqda, bu barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim etməlidirlər.";

1.4.2. ikinci-doqquzuncu abzaslar ləğv edilsin;

1.4.3. onuncu abzasda "Əməliyyatın tərəflərini qanunvericiliklə müəyyənləşdirilmiş qaydada dəqiq eyniləşdirmək mümkün deyilsə və ya müştəri və ya benefisiar mülkiyyətçi barədə eyniləşdirmə məlumatlarının təqdim edilməsindən imtina edilirsə, habelə müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığı aşkarlandıqda," sözləri "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 4.14-cü maddəsinə uyğun olaraq müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün olmadıqda," sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076; 2010, № 6, maddə 548; 2013, № 6, maddə 771; 2014, № 6, maddə 740; 2015, № 1, maddə 68; 2016, № 4, maddə 794; 2018, № 7 (II kitab), maddə 1635, № 9, maddə 1938; 2022, № 3, maddə 271) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nın 5.4-cü bəndindən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 291** **QƏRAR** **Bakı şəhəri, 28 avqust 2023-cü il**

## "Azərbaycan Respublikası prokurorluq işçilərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 850-VIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 may tarixli 2134 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası prokurorluq işçilərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 avqust tarixli 291 nömrəli Qərarı ilə təsdiq edilmişdir.***

## Azərbaycan Respublikası prokurorluq işçilərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları

| Sıra №-si | Əşyaların adı | Bir nəfər üçün miqdarı | İstifadə müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **1. Ali xüsusi və xüsusi rütbəli prokurorluq işçiləri üçün** | | | |
| 1.1. | Boz (göy) rəngli furajka (beret - qadınlar üçün) | 1 ədəd | 4 il |
| 1.2. | Boz (qara) rəngli xəz papaq | 1 ədəd | 4 il |
| 1.3. | Göy rəngli palto | 1 ədəd | 4 il |
| 1.4. | Göy rəngli gödəkçə | 1 ədəd | 4 il |
| 1.5. | Göy rəngli qış kostyumu (pencək, şalvar (qadınlar üçün yubka və şalvar) | 1 dəst | 2 il |
| 1.6. | Göy rəngli mövsümi kostyum (pencək, şalvar (qadınlar üçün yubka və şalvar) | 1 dəst | 2 il |
| 1.7. | Göy rəngli yaxası üçbucaq yun köynək | 1 ədəd | 3 il |
| 1.8. | Uzunqol köynək | 2 ədəd | 1 il |
| 1.9. | Qısaqol köynək | 2 ədəd | 1 il |
| 1.10. | Göy rəngli qış səhra gödəkçəsi və şalvarı | 1 dəst | 2 il |
| 1.11. | Göy rəngli yay səhra gödəkçəsi və şalvarı | 1 dəst | 2 il |
| 1.12. | Səhra jileti | 1 ədəd | 2 il |
| 1.13. | Qış səhra papağı (furajkası) | 1 ədəd | 2 il |
| 1.14. | Yay səhra furajkası | 1 ədəd | 2 il |
| 1.15. | Qalstuk | 2 ədəd | 1 il |
| 1.16. | Şərf | 1 ədəd | 3 il |
| 1.17. | Əlcək | 1 cüt | 4 il |
| 1.18. | Şalvar qayışı | 1 ədəd | 1 il |
| 1.19. | Göy rəngli uzunqol mayka | 2 ədəd | 1 il |
| 1.20. | Göy rəngli qısaqol mayka | 2 ədəd | 1 il |
| 1.21. | Corab | 6 cüt | 1 il |
| 1.22. | Tufli | 1 cüt | 2 il |
| 1.23. | Yarımçəkmə | 1 cüt | 2 il |
| 1.24. | Uzunboğaz çəkmə (səhra geyimi üçün) | 1 cüt | 3 il |
| **2. Ali hərbi və hərbi rütbəli prokurorluq işçiləri üçün** | | | |
| 2.1. | Tünd zeytun rəngli furajka (beret - qadınlar üçün) | 1 ədəd | 4 il |
| 2.2. | Qəhvəyi rəngli xəz papaq | 1 ədəd | 4 il |
| 2.3. | Tünd zeytun rəngli palto | 1 ədəd | 4 il |
| 2.4. | Tünd zeytun rəngli demisezon yarımpalto | 1 ədəd | 4 il |
| 2.5. | Tünd zeytun rəngli plaş | 1 ədəd | 4 il |
| 2.6. | Tünd zeytun rəngli qış gödəkçəsi | 1 ədəd | 4 il |
| 2.7. | Tünd zeytun rəngli qış kostyumu (pencək, şalvar (qadınlar üçün yubka və şalvar) | 1 dəst | 2 il |
| 2.8. | Tünd zeytun rəngli yay kostyumu (pencək, şalvar (qadınlar üçün yubka və şalvar) | 1 dəst | 2 il |
| 2.9. | Tünd zeytun rəngli uzunqol gödəkçə (pencək, şalvar (qadınlar üçün yubka və şalvar) | 1 dəst | 2 il |
| 2.10. | Tünd zeytun rəngli qısaqol gödəkçə və şalvar (qadınlar üçün yubka və şalvar) | 1 dəst | 2 il |
| 2.11. | Tünd zeytun rəngli yaxası üçbucaq yun köynək | 1 ədəd | 3 il |
| 2.12. | Uzunqol köynək | 2 ədəd | 1 il |
| 2.13. | Qısaqol köynək | 2 ədəd | 1 il |
| 2.14. | Qış səhra gödəkçəsi və şalvarı | 1 dəst | 2 il |
| 2.15. | Yay səhra gödəkçəsi və şalvarı | 1 dəst | 2 il |
| 2.16. | Kamuflyaj edilmiş yun köynək | 1 ədəd | 3 il |
| 2.17. | Qış səhra papağı (furajkası) | 1 ədəd | 2 il |
| 2.18. | Yay səhra papağı (furajkası) | 1 ədəd | 2 il |
| 2.19. | Əlcək | 1 cüt | 4 il |
| 2.20. | Tünd zeytun rəngli şərf | 1 ədəd | 3 il |
| 2.21. | Qalstuk | 2 ədəd | 1 il |
| 2.22. | Uzunqol mayka | 2 ədəd | 1 il |
| 2.23. | Qısaqol mayka | 2 ədəd | 1 il |
| 2.24. | Kamuflyaj edilmiş uzunqol mayka | 2 ədəd | 1 il |
| 2.25. | Kamuflyaj edilmiş qısaqol mayka | 2 ədəd | 1 il |
| 2.26. | Corab | 6 cüt | 1 il |
| 2.27. | Tufli | 1 cüt | 2 il |
| 2.28. | Yarımboğaz çəkmə (kişilər üçün) | 1 cüt | 2 il |
| 2.29. | Uzunboğaz çəkmə (qadınlar üçün) | 1 cüt | 2 il |
| 2.30. | Uzunboğaz çəkmə (səhra geyimi üçün) | 1 cüt | 3 il |
| 2.31. | Qara rəngli şalvar qayışı | 1 ədəd | 1 il |
| 2.32. | Tünd zeytun rəngli şalvar qayışı | 1 ədəd | 3 il |
| 2.33. | Kamuflyaj edilmiş yol çantası | 1 ədəd | 5 il |
| 2.34. | Qobur | 1 ədəd | 15 il |

**Qeydlər:**

1. Fərqlənmə nişanları prokurorluq işçilərinə hər geyim forması üçün 2 il müddətinə verilir.
2. Prokurorluğun fəaliyyət istiqamətləri üzrə prokurorluqda qulluq keçmənin xüsusiyyətləri nəzərə alınmaqla, prokurorluq işçilərinə növbəti olaraq verilən xüsusi geyim formalarının əvəzinə Azərbaycan Respublikasının baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilmiş qaydada pul kompensasiyası verilə bilər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 292** **QƏRAR** **Bakı şəhəri, 28 avqust 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 oktyabr tarixli 329 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminə məlumatların daxil edilməsi və həmin məlumatlardan istifadə mexanizmi barədə Texniki Reqlament"də dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 2023-cü il 19 aprel tarixli 2110 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 noyabr tarixli 18 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" 2023-cü il 19 aprel tarixli 2111 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 oktyabr tarixli 329 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1299; 2023, № 5, maddə 715) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminə məlumatların daxil edilməsi və həmin məlumatlardan istifadə mexanizmi barədə Texniki Reqlament"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.4-cü, 3.5-ci bəndlərdə, 3.7.3-cü və 3.8.2-ci yarımbəndlərin ikinci cümlələrində, 4.2.2-ci, 4.2.3-cü və 7.3.4-cü yarımbəndlərdə "təyin edən" sözləri "məlumatlarını daxil edən" sözləri ilə əvəz edilsin.

2. 3.8-ci bənddə "çoxmənzilli binaların, fərdi yaşayış evlərinin, qeyri-yaşayış sahələrinin (onların tərkib hissələrinin)" sözləri "çoxmənzilli binaların, qeyri-yaşayış binalarının, onların tərkib hissələrinin və fərdi yaşayış evlərinin" sözləri ilə, "ünvanların təyin edilməsi və" sözləri "dair ünvan məlumatlarının" sözləri ilə əvəz edilsin.

3. 3.8.1-ci və 3.8.2-ci yarımbəndlərin birinci cümlələrində "təyin" sözü "daxil" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# Zəfər gününüz mübarək, qardaş!

## Dünyanın söz və güc sahiblərindən birinə çevrilən Türkiyə şanlı tarixinin ən qürurlu səhifəsini iftixarla qeyd edir

*Əvvəli 1-ci səh.*

Türkiyə tarixinə Zəfər bayramı kimi həkk olunan 30 avqust tarixi hər bir türkün qürur mənbəyidir. Qazi Mustafa Kamal Paşa Atatürkün liderliyi ilə qurulub böyük bir inkişaf yolu keçən yeni və müasir Türkiyə Cümhuriyyəti şanlı zəfərinin 101 illiyini dünyada əsas söz və güc sahibi kimi iftixarla qeyd edir.

Bu gün beynəlxalq arenada mövqelərini əzmlə möhkəmləndirən, yeni-yeni sosial-iqtisadi layihələri əsasında bütün sahələr üzrə sürətlə inkişaf edən Türkiyənin müdafiə qüdrətinin necə yüksəldiyi isə bütün dünyaya bəllidir. Türkiyə müdafiə sənayesinin möhtəşəm nailiyyətləri qardaş ölkənin gücünə güc qatır. Milli təhlükəsizliyin qorunması, ölkənin müdafiə qüdrətinin yüksəlişi, xalqın rifahının təmin edilməsi və sairə dövlət siyasətinin təməl prinsipləridir. Xüsusən də Rəcəb Tayyib Ərdoğanın prezidentliyi dönəmində dinamik inkişaf edən qardaş ölkənin hərtərəfli inkişafı Türkiyəni həm regionda, həm də dünyada güc mərkəzinə çevirib. Dünyada baş verən mürəkkəb proseslərdə qətiyyətli və prinsipial mövqeyi, sülhün, haqq-ədalətin bərqərar olması üçün ardıcıl səyləri ilə Türkiyə yüksək nüfuz qazanıb.

Əlbəttə ki, qardaş ölkənin son illərdəki hərtərəfli tərəqqisi, bütün sahələrdə əldə etdiyi uğurları türk dünyasını fərəhləndirir, qürurlandırır.

Qardaş ölkənin Zəfər bayramı hər zaman olduğu kimi, Azərbaycanda da böyük coşqu ilə qeyd edilir. Çünki dünyada bərabəri olmayan, dostluq və qardaşlığın ən gözəl nümunəsi hesab edilən Azərbaycan-Türkiyə münasibətləri, strateji tərəfdaşlığı bu gün yeni yüksəliş mərhələsindədir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu sarsılmaz dostluğun daha sağlam bağlarla əbədi möhkəmlənməsində iki qardaş Prezident - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın xidmətləri əvəzsizdir. Ümummilli Liderin "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri olmadığını qürur hissi ilə vurğulayan İlham Əliyev qeyd edir ki, dövlətlərarası münasibətlərin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi böyük sevinc doğurur. Tarixən bir-birinə dəstək və dayaq olmuş qardaş xalqların iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşməsi istiqamətində birgə səylərin bundan sonra da uğurla davam etdiriləcəyini əminliklə vurğulayan İlham Əliyev bildirib ki, Türkiyə-Azərbaycan birliyi artıq çox ciddi geosiyasi amilə çevrilib və bu müttəfiqlik bölgə üçün sabitlik gətirir.

Hazırda elə bir sahə yoxdur ki, iki qardaş ölkə həmin sahələr üzrə əməkdaşlıq etməsin. İlk olaraq iqtisadi münasibətlərə nəzər yetirsək görərik ki, bu istiqamət üzrə bütün göstəricilər artan templə irəliləyir. Azərbaycanla Türkiyənin ticarət dövriyyəsi illik müqayisədə 40.5 faiz artaraq 4 milyard 746.1 milyon dollara yüksəlib. Həm İlham Əliyev, həm də Rəcəb Tayyib Ərdoğan iqtisadi əlaqələrdən danışarkən vurğulayıblar ki, illik ticarət dövriyyəsində hədəf bu rəqəmi 15 milyard dollara qaldırmaqdır.

Son illər Türkiyənin Azərbaycana yatırdığı investisiyaların həcmində ardıcıl artımlar müşahidə edilir. 2020-ci ildə Türkiyədən Azərbaycana yatırımlar 577 milyon dollar, 2021-ci ildə 740 milyon dollar, 2022-ci ildə isə 1 milyard 187 milyon dollar olub. Azərbaycanın 2022-ci ildə ən çox investisiya yönəltdiyi ölkə 247 milyon dollar ilə Türkiyə olub. Hazırda Türkiyədə 2000-ə yaxın Azərbaycan, ölkəmizdə isə 4100-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir.

Ölkələrimiz arasındakı hərbi sahədə mövcud əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaranıb. Bunu ilk növbədə 44 günlük Vətən müharibəsindəki zəfərimiz təsdiqləyir. İkinci Qarabağ müharibəsi başlayan gündən Rəcəb Tayyib Ərdoğan qətiyyətli şəkildə bəyan etdi ki, Türkiyə bu işin sonuna qədər Azərbaycanın yanındadır. Kimsə Azərbaycana mane olmağa çalışsa, qarşısında Türkiyəni görəcək. Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Dünyaya bəyan oldu ki, Azərbaycan tək deyil. Savaşdan sonra mədəniyyət paytaxtımızda imzalanan Şuşa Bəyannaməsi isə zəfərimizin zirvəsi oldu. Dünyaya bir daha bəyan edildi ki, bu əbədi sarsılmaz qardaşlıq həm də vahid güc mərkəzidir. Birinin ərazisinə hansısa qüvvə müdaxilə edərsə, digər qardaş dərhal köməyə gələcək.

Böyük zəfərimizdən sonra Qarabağa ilk ayaq basan xarici ölkə prezidenti Rəcəb Tayyib Ərdoğan oldu. 2021-ci il oktyabrın 26-da İlham Əliyev qalib komandan kimi qardaşı Rəcəb Tayyib Ərdoğanı Qarabağın ilk "hava qapısı" olan Füzuli Beynəlxalq Hava Limanında qarşıladı. 2022-ci ilin oktyabr ayının 20-də isə Türkiyə Prezidenti Şərqi Zəngəzur torpaqlarına ayaq basdı. Həmin gün Müzəffər Ali Baş Komandan İlham Əliyev qardaşını Zəngəzurun ilk "hava qapısı" olan Zəngilan Beynəlxalq Hava Limanında qarşıladı. Dost gəlişi Qarabağda, Şərqi Zəngəzurda böyük bayrama çevrildi.

Azərbaycanla Türkiyənin hərbi sahədə əməkdaşlığı yüksələn xətlə inkişaf etməkdədir. Ordumuzun müasir hərbi birləşmələr modelinə, xüsusilə də Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılır. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Bu birlik regionda əmin-amanlığın və sabitliyin qorunmasına töhfə verir. Birgə keçirilən müxtəlif istiqamətli hərbi təlimlər isə hərbçilərimizin döyüş qabiliyyətini daha da gücləndirir.

Azərbaycan-Türkiyə münasibətlərinin yüksəlişini neft-qaz, nəqliyyat sahəsində böyük layihələrin icrasında, qarşılıqlı təşəbbüsdə, birgə fəaliyyətdə də görmək mümkündür. Regionun inkişafı üçün birlikdə bir çox böyük layihələr həyata keçirilib. Bunların sırasında "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Ərzurum qaz kəmərini, həmçinin Baki-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsini göstərə bilərik.

Azərbaycan və Türkiyə hər zaman müxtəlif beynəlxaq kürsülərdə bir-birlərinə arxa dayaq olublar və bu gün də proses davam etməkdədir.

Göründüyü kimi, bu gün dünyaya nümunə kimi göstərilən, bərabəri olmayan Azərbaycan-Türkiyə birliyi İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın ortaya qoyduqları qətiyyətli siyasətlə getdikcə daha da möhkəmlənir və bu, şad gündə də, dar gündə də bir-birinin yanında olan uca türk millətini hər zaman qürurlandırır.

Zəfər bayramın mübarək, qardaş Türkiyə!

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Birliyə və inkişafa xidmət edən əməkdaşlıq

## Dostluq münasibətləri Azərbaycan dövlətinin Mərkəzi Asiya siyasətində yeni üfüqlər açır

Ölkələrimizin müstəqilliyi dövründə Azərbaycanla Özbəkistan arasında dostluq və etibarlı münasibətlər üzərində qurulmuş əlaqələr son illərdə daha da möhkəmlənərək inkişaf etməkdədir. Burada Azərbaycan və Özbəkistanın dövlət rəhbərləri cənab İlham Əliyev və cənab Şavkat Mirziyoyev arasındakı qarşılıqlı rəğbət və etimadın, ölkələrimizin və ümumilikdə regionumuzun gələcəyinə aydın baxışlarının üst-üstə düşməsinin, mövcud imkanlardan hər iki respublikanın mənafeyi naminə faydalanmaq əzminin çox böyük təsiri var. Təsadüfi deyil ki, Azərbaycan və Özbəkistan prezidentləri dövlət və rəsmi səfərlərdən əlavə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər.

Bu günlərdə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri də bu baxımdan tarixi bir hadisə oldu. Onun Özbəkistan Prezidenti seçildikdən sonra ilk səfərini məhz Azərbaycana etməsi iki ölkə arasındakı qardaşlıq münasibətlərinin səviyyəsindən xəbər verir.

### Münasibətlərin aynası

Bu səfər iki ölkə arasındakı münasibətlərin aynası kimi böyük simvolik məna daşımaqla yanaşı, konkret nəticələri ilə də son dərəcə səmərəli oldu. İlk növbədə səfər proqramı çərçivəsində olan görüşlərdə son illər qarşılıqlı münasibətlər zəminində əldə edilmiş bütün nailiyyətlər və yeni imkanlar dəyərləndirildi. Beynəlxalq platformalarda müştərək fəaliyyət, energetika, nəqliyyat, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı əlaqələr də daxil olmaqla kifayət qədər geniş spektrdə əməkdaşlıq perspektivləri nəzərdən keçirildi və ölkələrimizi yetərincə ciddi nəticələrə gətirib çıxarmış düzgün yolun yaxın gələcəkdə də davam etdirilməsinə dair məqsədyönlü qərarlar qəbul olundu. Xüsusilə səfər zamanı Ali Dövlətlərarası Şuranın yaradılması barədə müqavilənin imzalanmasının çox böyük əhəmiyyəti var. Ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyəsinin, qardaşlıq münasibətlərinin daha bir göstəricisi olan bu müqavilə eyni zamanda Azərbaycanla Özbəkistanın əməkdaşlıq gündəliyində kifayət qədər əhatəli planların, bu strateji planları həyata keçirməkdən ötrü güclü iradənin olduğunu göstərir.

Səfər zamanı bu müqavilədən başqa, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Özbəkistan Respublikasının Rəqabətin İnkişafı və İstehlakçıların Hüquqlarının Müdafiəsi üzrə Komitəsi arasında əməkdaşlıq", "İcazə blanklarının elektron mübadiləsi üzrə informasiya sisteminin tətbiqi sahəsində əməkdaşlıq", "Mədəniyyət sahəsində əməkdaşlıq", "Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi" haqqında protokollar imzalandı. Eləcə də "Energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsi", "Gənclər siyasəti və idman sahələrində əməkdaşlıq" haqqında sazişlərə, "Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının Katibinin Xidməti ilə Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının Aparatı arasında əməkdaşlıq haqqında Memorandum"a imza atıldı. Səfər zamanı iki yol xəritəsi də imzalandı. Bunlardan biri media sahəsində əməkdaşlığın inkişafını nəzərdə tutur. Digəri isə 2023-2024-cü illərdə iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsi barədədir.

### 20 sənəd imzalandı

İmzalanan sənədlərin geniş sahələri əhatə etməsi qarşılıqlı birgə faydalar yaratmaqdan ötrü mövcud imkanların nə qədər əhatəliliyinə və bu imkanları reallığa çevirmək əzminə dəlalət edir. Əsas perspektivlərdən biri Azərbaycanın son onilliklərdə kifayət qədər uğur qazandığı, böyük tarixi nailiyyətlərə imza atdığı energetika sektorundadır. Azərbaycan və Özbəkistanın enerji sahəsində əməkdaşlığı üçün çox böyük perspektivlər var. Hər iki ölkənin enerji şirkətləri qarşılıqlı şəkildə fəaliyyət göstərir. İmzalanan yeni sənədlər, təməli qoyulan yeni strateji planlar bunun daha da inkişaf etdirilməsinə yol açacaqdır. Münasibətlərdə daha bir ümidverici tendensiya nəqliyyat-logistika sahəsindədir. Həyata keçirilən məqsədyönlü siyasət, yerinə yetirilən qlobal layihələrin səmərəli nəticələri, qurulan müasir infrastruktur sayəsində Azərbaycan getdikcə beynəlxalq nəqliyyat-logistika qovşağına çevrilir. Respublikamız beynəlxalq nəqliyyat şəbəkələrinə uğurla inteqrasiya oluna bilib. Ölkəmizdən keçməklə yük axını ildən-ilə artır. Bu axına yeni tərəfdaşlar qoşulur. Azərbaycanla Özbəkistan arasında da yük axınının zamanla artması müşahidə olunmaqdadır. Əldə edilən razılaşmalar, verilən birgə qərarlar bu sahədə əməkdaşlığın genişlənməsinə təkan verəcək. Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan yükdaşımaların həcmi daha da artacaq. Prezident İlham Əliyevin ötən ilin iyununda Özbəkistana dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

İki ölkə arasında aparılan danışıqların, əldə olunan razılaşmaların praktik nəticələrinə Azərbaycan və Özbəkistan ictimaiyyəti çox yaxın zamanlarda şahid olacaq. Bunun əsas indikatorlarından biri kimi investisiyaların inkişaf dinamikasında da böyük gözləntilər var. Bir müddət əvvəl 500 milyon dollar nizamnamə kapitalı ilə yaradılan Birgə İnvestisiya Fondu öz səmərəsini verəcək.

### Mədəni zəmin

Azərbaycan və Özbəkistan münasibətlərindən söhbət gedərkən bunun mədəni zəmini də diqqətdən kənarda qalmamalıdır. Bizi ortaq tarixi köklər, birgə mədəniyyət, eyni milli-mənəvi dəyərlər birləşdirir. İki ölkənin qardaşlıq əlaqələrinin təməlində çox nəhəng mədəni fəaliyyət durur. Azərbaycan və Özbəkistan cəmiyyətləri arasında çoxəsrlik tarixi əlaqələr var. Bu əlaqələrə söykənərək istər sovet dövründə, istərsə də müstəqillik illərində iki ölkə hər zaman bir-birinin yanında olub, qarşılıqlı dəstəyini bir-birindən heç zaman əsirgəməyib.

Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. Hazırda 70 minə yaxın azərbaycanlı soydaşımız Özbəkistanda yaşayır. Onlar bu ölkənin sosial, ictimai, iqtisadi həyatında çox fəal iştirak edirlər.

Ortaq tarixi köklərə əsaslanan mədəniyyət amili daim diqqətdə saxlanılır, müasir dövrdə də bu sahənin müştərək zəmində inkişafı, cəmiyyətlərin ölkələrdəki yeni mədəniyyət tendensiyaları ilə yaxından tanışlığı, sadə dildə desək, əsrlər əvvəl olduğu kimi yenə də bir-birindən görüb-götürməsi üçün dövlətlər səviyyəsində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanda böyük uğurla keçirilmiş Özbəkistanın Mədəniyyət Günləri buna bir nümunədir. Həmin günlərdə təşkil olunan bir-birindən maraqlı proqramlarla Azərbaycan tamaşaçıları qardaş xalqın nümayəndələrinin yüksək ustalığına, istedadına bir daha şahid oldular.

Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, humanitar sahədə də əlaqələrin inkişafına xüsusi önəm verir: "Biz ölkələrimiz arasında humanitar əməkdaşlığı çox yüksək qiymətləndiririk. Bu, tamamilə təbiidir, çünki xalqlarımız qardaş xalqlardır, yaxın xalqlardır. Biz özbək ədəbiyyatını, musiqisini, mədəniyyətini çox sevirik. Yəni bunlar sizin üçün olduğu kimi, bizim üçün də əziz və doğmadır".

### Özbəkistan haqq işimizdə yanımızdadır

Özbəkistan bu doğmalığı, qardaşlığa, dostluğa sadiqliyi illər əvvəl təcavüzkar Ermənistanın işğalına məruz qalan və böyük bir dövr ərzində tarixi ədalətin bərpa olunması naminə mübarizə aparan Azərbaycanın haqq savaşına münasibətində sübuta yetirib. Hazırda Özbəkistanda böyük bir erməni icması yaşayır. Amma bütün bunlara baxmayaraq, indiyə qədər Özbəkistanda Ermənistanın, Ermənistanda isə Özbəkistanın səfirliyi fəaliyyət göstərmir. Azərbaycanın torpaqlarının bir qismini uzun illər işğal altında saxlamış, bir milyona yaxın vətəndaşımızı yurdundan didərgin salmış, qurulu yurdlarımızı tar-mar etmiş, tarixi abidələrimizi dağıtmış, dəyərlərimizi təhqirə məruz qoymuş Ermənistanın işğalçı, vandal əməllərinə münasibətini qardaş Özbəkistan məhz bu cür ifadə edib.

Eyni doğma münasibəti 44 günlük Vətən müharibəsindəki zəfərimizdən sonra azad yurdlarımızda başlanmış bərpa-quruculuq prosesində də gördük. İşğaldan tam azad edilmiş Füzulidə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə məktəb inşa olunub. Məlum olduğu kimi, Qarabağda, Şərqi Zəngəzurda bərpa-quruculuq işlərini Azərbaycan heç bir xarici dövlətdən, beynəlxalq qurumdan maddi yardım almadan öz vəsaiti hesabına həyata keçirir. Amma dost payının da dəyəri bir başqadır. Özbəkistanın azad Füzulidə ucaltdığı ən müasir standartlara uyğun 960 şagird yerlik məktəb binası son dərəcə böyük anlam daşıyır. Bu bir qardaşlıq, həmrəylik, dəstək jestidir. Üstəlik, inşa olunmuş məktəb özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyır və bu, təkcə təhsil ocağı deyil, eləcə də bizim dost və qardaşlığımızın daha bir mərkəzi olacaq. Özbəkistan Prezidentinin işğaldan azad edilən ərazilərə səfəri, sözügedən məktəb binasının, eləcə də yeni tikilmiş bir sıra obyektlərin açılışları, yeni layihələrlə tanışlıq səmimi və qardaşlıq münasibətlərinin təcəssümü kimi yadda qaldı. Təhsil işığında, maarif və inkişaf nurunda Azərbaycan və Özbəkistanın əsrlərin o üzündən gələn doğmalıq tarixinin yeni şərəf salnaməsi yazılacaq.

### İntibah dövrü

Ümumilikdə bu səfər Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, o cümlədən Özbəkistanla münasibətlərin nə qədər böyük yer tutduğunu, həmçinin həmin ölkələr üçün də Azərbaycanın mühüm əhəmiyyətini göstərdi. Özbəkistan Mərkəzi Asiyanın ən böyük dövlətlərindəndir. Bu ölkə son illər sürətli inkişaf yolundadır. Özbəkistanın tərəqqisi üçün çox böyük potensialı var. Dahi özbək mütəfəkkiri Əlişir Nəvainin öz "Xəmsə"sini Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə almasından tutmuş Bakıdakı İçərişəhərdə yerləşən, XV əsrə aid Buxara karvansarasına, XVI-XVII əsrlərdə yaşamış Azərbaycan filosofu, şairi və böyük din xadimi, əslən Qarabağdan olan Yusif ibn Məhəmmədcan Qarabağinin Özbəkistanın Səmərqənd şəhərində yerləşən məzarına qədər bir çox tarixi dəlillər də göstərir ki, Azərbaycanda və Özbəkistanda inkişaf prosesləri qarşılıqlı şəkildə bir-birinə təsir göstərir. İki ölkə üçün yeni dəyərlər yaradır.

Son illər ölkələrimiz arasında böyük sürətlə genişlənən əlaqələri bu baxımdan münasibətlərin intibahı dövrü də adlandıra bilərik. Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında və dövlətlərarası münasibətlərin formalaşmasında Ulu Öndər Heydər Əliyevin və Özbəkistanın sabiq prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub. Dövlət rəhbərlərinin qarşılıqlı səfərləri zamanı münasibətlərin strateji istiqamətləri müəyyənləşib, ölkələrin səfirlikləri fəaliyyətə başlayıb, münasibətlərin hüquqi bazası yaradılıb. İndiyə qədər iki ölkə arasında 160-dan çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə imzalanıb.

### Türk dünyasına töhfə

Son illərdə Azərbaycan-Özbəkistan münasibətləri tarixinin, demək olar ki, ən yüksək səviyyəsinə çatıb. Xüsusilə ötən il əlaqələrin inkişafında son dərəcə məhsuldar oldu. 2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana üç dəfə səfər etdi. Dövlət rəhbərimiz ötən il iyunun 21-22-də Özbəkistana dövlət səfəri həyata keçirdi. Sentyabrın 15-16-da Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə keçirilmiş sammitində fəxri qonaq qismində iştirak etdi. Noyabrın 10-11-də isə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak üçün Özbəkistanda səfərdə oldu. Bütün bu səfərlər zamanı əldə edilmiş razılaşmalar Özbəkistanla əlaqələrimizin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirdi, ümumən Azərbaycan dövlətinin Mərkəzi Asiya siyasətində yeni üfüqlər açdı.

Azərbaycanın Özbəkistan və digər Orta Asiya ölkələri ilə getdikcə genişlənən əməkdaşlığı türk dünyasının bu gününə və gələcəyinə böyük töhfədir. Bu əlaqələr, qarşılıqlı güvən, gələcəyə birgə baxış türkdilli ölkələr üçün parlaq bir örnək yaradır, XXI əsrdə türk dünyasını həlledici gücə çevirir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023



# Müstəqilliyin təməl daşı

## 32 il öncə Heydər Əliyevin tarixi təşəbbüsü ilə qəbul edilən bəyannamə azadlığa gedən yolun ilk hüquqi sənədi oldu

*Tarix 30 avqust, 1991-ci il.*

Müasir Azərbaycanın banisi, bənzərsiz siyasi və dövlətçilik fəaliyyəti ilə ölkəmizin inkişaf tarixində misilsiz xidmətləri olan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olundu.

Həmin bəyannamə ilə Ali Sovet Azərbaycanın dövlət müstəqilliyinin bərpa olduğunu elan etdi. 1991-ci il oktyabrın 18-də isə Ali Sovet tərəfindən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Məhz bu bəyyannamənin qəbulu ilə Azərbaycan XX əsrdə ikinci dəfə müstəqillik qazandı. Bu, əlbəttə ki, dahi şəxsiyyətin Azərbaycanın bir dövlət kimi müstəqilliyinin bərpası və yeni inkişaf dövrünə qədəm qoyması istiqamətində həyata keçirdiyi missiyanın unudulmaz tarixi anlarından biridir.

Bəs, Ulu Öndər bu missiyanı necə həyata keçirdi?

Ümumiyyətlə, 1990-1993-cü illər Heydər Əliyevin vətən naminə mübarizə yolunda xüsusi yer tutur. Azərbaycanın tarixində "olum, ya ölüm" mübarizəsi dövrü kimi yadda qalan həmin zamanlarda Ulu Öndər çox çətinliklərlə qarşılaşmışdı. Həm Moskvanın idarə etdiyi xəyanətkar rəhbərlər, həm də Azərbaycanın siyasi hakimiyyətinin yarıtmaz fəaliyyəti ölkəmiz üçün çox acınacaqlı vəziyyət yaratmışdı. Xalqımız 1990-cı ilin 20 yanvarında faciə yaşadı. Bu, xalqın azadlıq mübarizəsinin rəmzi oldu. Bu zaman Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev bununla da özünü qurtuluş mübarizəsinin önünə atdı və beləliklə, Azərbaycan xalqının qurtuluş mübarizəsi başlandı. 1990-cı il iyulun 20-də Ulu Öndər vətənə qayıtsa da, Bakıda xalqın xilaskar liderinə ağır gündə, belə vəziyyətdə yol göstərməyə, dəstək verməyə və bu yolda inamlı mübarizə aparmağa "özümüzünkülər" imkan vermədi. Belə olan halda dahi şəxsiyyət iyulun 22-də doğulduğu Naxçıvana getmək məcburiyyətində qaldı. Amma xalqının düşdüyü bu acınacaqlı vəziyyətdən qurtuluşu üçün bir gün belə dayanmadı, əzmlə, yorulmadan bu yolda mübarizəsinə davam etdi.

30 sentyabr 1990-cı il tarixdə Ulu Öndər Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi. Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Soveti müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Sessiyada qəbul edilən cəsarətli qərarlardan biri də Naxçıvan Muxtar Respublikasının adından "sovet" və "sosialist" sözlərinin götürülməsi idi. Həmin sessiyada Heydər Əliyevin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da, sadəcə, redaktə xarakterli düzəliş deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 Yanvar hadisəsinə düzgün siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərləri Vəzirovun, Mütəllibovun günahkar olduqlarını qeyd etdi, xalqa kimlərin ona rəhbərlik etdiyini göstərdi.

Ulu Öndərin Naxçıvanda həyata keçirdiyi demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasındakı çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etdi, böhranın, habelə keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar Ermənistana qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etdi. Onun çağırışını xalq ruh yüksəkliyi ilə qarşıladı. Həmin sessiyada dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Ulu Öndər 1991-ci il iyulun 19-da Kommunist Partiyasından çıxdı. O, SSRİ Nazirlər Kabineti partiya təşkilatına ərizəsində qeyd edirdi: "Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir... bütün bunlar "humanist ideologiyalı" sovet dövləti üçün adi haldır". Xalq imperiyanın bərpası üçün cəhd edənlərə Ulu Öndərin qəti etirazını razılıqla qarşıladı. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

Avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı və Heydər Əliyevin irəli sürdüyü təşəbbüs əsasında qanunverici orqan "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. Bu, həqiqətən də Ulu Öndərin tarixi təşəbbüsü, Azərbaycanın müstəqilliyinin bərpası istiqamətində atılan ilk addım oldu.

Həmin il sentyabrın 3-də ağır blokada vəziyyətində olan Naxçıvanda inkişafa, yüksəlişə aparan yolun əsası qoyuldu. Sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyev həm də müvafiq qanunvericiliyə əsasən Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini oldu. Bu hal qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməsinə meydan açdı. Ümummilli Liderin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil etdi.

Heydər Əliyev Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul edildi. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanılması təmin olundu.

Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. 1991-ci il 18 oktyabr dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Konstitusiya Aktında deyilirdi: "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir".

Dövlət müstəqilliyinin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də itirilməsinə gətirib çıxaracaqdı. Bir-birini əvəz edən Mütəllibov və AXC-Müsavat iqtidarları əslində dövlətçilik mövqeyindən deyil, öz hakimiyyətlərini qoruyub saxlamaq maraqlarından çıxış edir və beləliklə, hələ kövrək olan dövlət müstəqilliyini təhlükə altına salırdılar. Həmin dövrdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə, ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq onun təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər.

Amma Ulu Öndər Heydər Əliyevin siyasi institutların inkişafına verdiyi dəstək sayəsində müstəqil dövlətçilik ənənələrinin inkişafı prosesi başlandı. Belə ki, 1992-ci il noyabrın 21-də Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçildi və xalq qarşısındakı xidmətləri, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Beləliklə, ölkəni gözləyən bütün təhlükələri dəf edən Ulu Öndər Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu. Ümummilli Lider 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra səmərəli dövlətçilik konsepsiyası, iqtisadiyyatın dirçəlişi strategiyası və azərbaycançılıq fəlsəfəsinin əsaslarına uyğun olaraq demokratik inkişaf reallaşdı. İnsan hüquq və azadlıqlarının qorunması ilə davamlı demokratik islahatlar kursunun həyata keçirilməsinə başlanıldı. Bütün insan hüquqları, o cümlədən söz, mətbuat azadlığı, şəxsiyyətin toxunulmazlığı təmin edildi. Ölkəmizdə tarixən mövcud olmuş tolerantlıq mühiti daha da möhkəmləndirildi, vətəndaş cəmiyyətinin formalaşdırılması yolunda köklü irəliləyiş əldə olundu. Bütün bunlar Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyasında təsbit edildi. Ulu Öndərin rəhbərliyi ilə başlanan islahatlar nəticəsində dövlət idarəçiliyinin bütün sahələri dünya standartlarına uyğunlaşdırıldı. Heydər Əliyevin uzaqgörənliyi ilə mütərəqqi dövlət quruculuğuna start verildi, dövlətçiliyin başlıca prinsipləri formalaşdırıldı, vətəndaşla dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan sosial sabitliyin təməli qoyuldu və dövlət cəmiyyətin bütövlüyünün tam təminatçısına çevrildi.

Əgər Ulu Öndər ölkəmizin xilaskarı kimi adını tarixə yazdırdısa, onun layiqli varisi İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. O, xalqımızın 30 illik həsrətinə, iki əsrlik münaqişəyə son qoyaraq işğal altında olan torpaqlarımızı azad etdi. Bu, Ulu Öndərin ən böyük arzusu və vəsiyyəti idi. İlham Əliyev ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan kimi Azərbaycan xalqının qəlbində əbədi heykəlini ucaltdı. Bu gün isə müstəqil Azərbaycan Heydər Əliyevin görmək istədiyi dünyaya günəş kimi doğan ölkə olaraq İlham Əliyevlə daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mingəçevirdə Heydər Əliyevin Azərbaycan dilinin inkişafındakı xidmətlərindən danışılmışdır

Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda "dəyirmi masa" keçirilmişdir. İştirakçılar Gənclər Evində təşkil olunan tədbirdən öncə Heydər Əliyevin abidəsini ziyarət etmişlər.




Tədbiri giriş sözü ilə açan şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov qeyd etmişdir ki, tarixin sərt sınaqlarından üzüağ çıxan dilimiz ulu babalarımızdan bizə miras qalan milli sərvətimizdir. "Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur" deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirmişdir. Ulu Öndərin ideyaları fundamental əsaslarda azərbaycançılıq məfkurəsinin bel sütunudur. Çünki ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir.

Müstəqil dövlətimizin mövcudluğunun dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkan olduğunu deyən natiq məhz Heydər Əliyevin əsasını qoyduğu dil siyasətinin bu sahədə qazandığımız uğurların əsasını təşkil etdiyini bildirmişdir: "Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ulu Öndərin dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub".

İ.İsmayılov həmçinin xatırlatmışdır ki, Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi haqqının bərpa olunması istiqamətində atılmış vacib addımlardan biri 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanın imzalanması olmuşdur: "Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, əvvəlki on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir. Eyni zamanda problem və nöqsanlar müəyyənləşdirilərək onların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmiş və qəti olaraq 2001-ci il avqust ayının 1-dən latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi qərara alınmışdır".

"Dəyirmi masa" ətrafında müzakirələrdə digər maraqlı çıxışlar da olmuşdur. Mingəçevir Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafov "1978-ci il Konstitusiyasında Azərbaycan dövlətinin dövlət dili Azərbaycan dili kimi təsdiq edilməsində Heydər Əliyevin rolu əvəzedilməzdir", həmin universitetin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Səadət Ağakişiyeva "Ümummilli Lider Heydər Əliyev ana dilinin böyük qayğıkeşi və hamisi", 19 №-li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Elnurə Yusifova "Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2021-ci il tarixli Fərmanı Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsində əsas sənəddir", Təbiət, riyaziyyat və humanitar elmlər təmayüllü liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi Dilarə Səfərli "Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası", 20 №-li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Əsəd Əşrəfov "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ana dilinin həyatımızın bütün sahələrində tətbiqini gerçəkləşdirməsi Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı olmasının bariz nümunəsidir" mövzularında məruzələr etmişlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Fransa ənənəvi riyakarlığını davam etdirir

## Bu ölkə Cənubi Qafqazda mənfur təcrübəsinin tətbiqinə çalışır

"Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".



Bu fikirləri Prezident İlham Əliyev iyulun 5-də Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə Fransanın Azərbaycanın daxili işinə müdaxiləsindən bəhs edərkən bildirib. Dövlət başçısı xüsusilə vurğulayıb ki, özünü guya insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışmaqdan əl çəkmir. Keçmiş Minsk qrupunun həmsədr ölkəsi kimi 25 il ərzində Azərbaycan-Ermənistan münaqişəsinin həlli istiqamətində heç bir əməli addım atmayan, əksinə, erməni lobbisinin oyuncağı kimi onların hər buyurduğunu yerinə yetirən Fransa bugünün özündə də riyakar siyasətini davam etdirir. Müstəmləkəçi Fransa postmüharibə dövründə Ermənistanın təxribatçı əməllərini dəstəkləyir, ölkəmiz əleyhinə əsassız ittihamlar səsləndirir, beynəlxalq hüququn norma və prinsiplərini aşkar şəkildə pozur.

Avqustun 28-də Fransa Prezidenti Emmanuel Makronun səfirlər konfransı zamanı Cənubi Qafqaz regionunun mövcud vəziyyətinə dair yanlış təəssürat formalaşdıran fikirləri də bir daha sübut edir ki, bu ölkə Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli ittihamları ilə sülh prosesinə mane olmaq niyyəti güdür. Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı zəfəri və bu qələbədən sonra ölkəmizin regionda, eləcə də dünyada artan nüfuzu Fransanın bu vaxta kimi pərdə arxasında gizlətməyə çalışdığı ermənipərəst mövqeyini qabarıq aşkara çıxarıb.

### Erməni diasporunun oyuncağı

Fransa Prezidentinin leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu məsələdə təzyiq dili ilə danışması Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətsizlikdir və tərəfimizdən rədd edilir. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, Fransa prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu sübut edir: "Azərbaycana qarşı 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq və təcavüz əməllərini qınamayan, işğal nəticəsində 1 milyona yaxın qaçqın və məcburi köçkünün humanitar vəziyyətinə dair heç bir şərh verməyən Fransa tərəfinin, indi Azərbaycanın BMT Nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz torpaqlarının azad edilməsi ilə nəticələnən 2020-ci il 44 günlük Vətən müharibəsini qınaması, eləcə də bölgədə humanitar vəziyyət ilə bağlı iddialarla çıxışında xüsusi vurğu etməsi anlaşılan deyil".

Ölkəmiz əleyhinə uydurma qətnamələr qəbul etməyi, qərəzlə dolu bəyanatlar yayıb, açıqlamalar verməyi vərdiş halına çevirən Fransa hər addımında erməni diasporunun oyuncağı olduğunu təsdiqləyir. Bu ölkəyə yaxşı məlumdur ki, Laçın yolundan və sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakininin keçidi təmin olunur, Azərbaycan tərəfindən dinc ermənilərə yüklərin daşınması üçün "Ağdam-Xankəndi" və digər alternativ yollar ayrılıb. Lakin bütün bu səylərə baxmayaraq, təklif edilən yollardan istifadədən Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər israrla imtina edirlər. Fransa tərəfinin ermənilərin təhrikçi addımlarına dəstək verən açıqlamalar verməsi xüsusilə belə vəziyyətdə təxribatçılıqdan başqa bir şey deyil.

Fransa hətta Avropa İttifaqı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin də Ağdam yolundan istifadəyə dəstək verməsinə məhəl qoymur və məqsədli şəkildə Ermənistanın manipulyasiyalarına önəm verir. Həmçinin guya Beynəlxalq Ədalət Məhkəməsinin 22 fevral tarixli qərarına istinad edən Fransa tərəfi Laçın sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması barədə Ermənistanın tələbinin sözügedən məhkəmə tərəfindən yekdilliklə rədd edilməsini görməzlikdən gəlir. Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdən Fransa bütün bunlarla Avropa siyasi məkanını çaşdırmağa və gedişatı ermənilərin xeyrinə dəyişməyə çalışsa da, bunu bacarmayacaq. Onun xəstə niyyətli davranışları yalnız özünə və "kiçik bacı"sı Ermənistana ziyan vurur.

### Azərbaycan bütün kənar müdaxilələrin qarşısını qətiyyətlə alır

Ermənistan revanşist qüvvələrin köhnə və şovinist təsəvvürlərinin erməni xalqının xeyrinə olmadığını anlamaq istəmir. Bunun nəticəsidir ki, Xankəndidəki separatçı-rejimin keçmiş qondarma "dövlət naziri" Ruben Vardanyanın sosial şəbəkələrdə paylaşdığı "Humanitar hava dəhlizi ilə bağlı xoş xəbər" anonsuna aldanır. Vardanyan teleqram kanalında yazıb ki, Lixtenşteyn şahzadəsi Mixael mühasirədə olan Artsaxa humanitar yardımın hava karvanına rəhbərlik etməyə və humanitar yardım aparan təyyarədə olmağa hazır olduğunu bildirib: "Humanitar tərəfdaşımız, İsveçrənin "Impact Investing Solutions" şirkəti artıq internet səhifəsində press-reliz dərc edib və qeyd edib ki, Lixtenşteynin Əlahəzrət Şahzadəsi Mixael və digər dünya liderləri, indiki və keçmiş dövlət başçıları ilə birlikdə biz 120 min insanın, o cümlədən 30 min uşağın səkkiz aydan çox qida və dərmandan məhrum olduğu Dağlıq Qarabağa həyati əhəmiyyətli malları çatdırmağa hazırıq".

Görünür, Lixtenşteyn şahzadəsinin heç nədən xəbəri yoxdur. Vardanyan da onun dediklərinin utopik olduğunu yaxşı bilir. Sadəcə, bu cür mənasız sözlərlə təsəlli tapmağa çalışır. Onun bildirdiyi bir həqiqət var ki, Azərbaycan suverenliyinə və ərazi bütövlüyünə edilən hörmətsizliklərə göz yummur, ayrı-ayrı dövlətlərin ölkəmizin daxili işlərinə qarışmaq cəhdlərinin və ikili yanaşmalarının qarşısını alır.

Qarabağda girov kimi saxlanılan sadə ermənilər əsassız iddialara aldanmamalı, Azərbaycan tərəfinin bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlı olduğunu və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısını qətiyyətlə alacağını bilməlidirlər.

Öz gözündə tiri görməyib, özgə gözündə tük axtaran Fransanın, eləcə də digər dövlətlərin cəhdləri tarixin bütün dövrlərində nəticəsiz qalıb. Fransalı siyasilərin, Prezident Makronun erməni sevdasına uyub səsləndirdiyi pafoslu fikirləri, Vardanyanın saxta anonsları və Lixtenşteyn şahzadəsinin "jest"ləri də zaman-zaman qəbul etdikləri qətnamələr, verdikləri bəyanatlarla eyni taleni yaşayacaq, tarixin arxivində tozlanacaqlar. Ermənistanın və onun havadarlarının saxta təbliğatları, ölkəmizi beynəlxalq ictimaiyyətin gözündən salmaq cəhdləri həmişəki kimi uğursuzluğa məhkumdur.

Bədnam qonşumuzun yeganə yolu bu gün bölgədə davamlı əmin-amanlığı və təhlükəsizliyi təmin etmək məqsədilə əlindən gələni əsirgəməyən Azərbaycanın təklif etdiyi sülh modelini qəbul etməkdir.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Hərbi cinayətkarların keçə bilmədikləri keçid

## "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsi milli maraqlarımıza xidmət edir

Ermənistan təcavüzkar dövlətdir. Bunu əsaslı dəlil-sübutlar təsdiqləyir. BMT kimi nüfuzlu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurası bu ölkəni rəsmən işğalçı kimi tanıyıb və İşğal olunmuş ərazilərin dərhal boşaldılması barədə 4 qətnamə qəbul edib. Əslində Ermənistan da özünün işğalçı, təcavüzkar olduğunu qəbul edib. Arxasında durub onların təcavüzkar hərəkətlərini müdafiə edən dövlətlərin vasitəsilə vaxtilə "müharibədə uduzmuş" Azərbaycana təzyiq edərək 5+2 variantı ilə razılaşmağı təkid edirdilər...



Strateji əhəmiyyətli Laçının, yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan Kəlbəcərin "taleyi" isə qalırdı "vasitəçi"lərin insafına. Onların məntiqi ilə desək, "peşkəş" edilirdi "qalib Ermənistana..."

44 günlük Vətən müharibəsindəki ağır məğlubiyyətə uğrayan Ermənistan üçtərəfli Bəyanatın şərtinə uyğun olaraq, Laçını və Kəlbəcəri də qanuni Azərbaycan ərazisi olduğu üçün geri qaytarmaq məcburiyyətində qaldı. Bununla da Ermənistan bütün dünyaya bir daha bəyan etmiş oldu ki, Laçın və Kəlbəcər beynəlxalq hüquqla tanınan Azərbaycan ərazisidir və heç vaxt mübahisə mövzusu ola bilməz. Əslində, üçtərəfli Bəyanatı imzalayan Ermənistan bununla da Azərbaycanın ərazi bütövlüyünü, Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqlədi.

Müharibədəki ağır məğlubiyyət Ermənistanın səsini batırmışdı. Səsləri çıxmasa da, hayların xisləti dəyişməmiş qalırdı. Hər fürsətdə bildiklərini etməyə cəhd göstərirdilər. Azərbaycanın xoş niyyət göstərib, humanitar məqsədlə verdiyi Laçın yolu ilə sərvətimizi talan edib Ermənistana daşıyan haylar bu yolla ərazilərimizə silah gətirir, hərbi cinayətlər törədir, torpaqlarımızı yenidən minalayırdılar. Bir yandan da Ermənistanı yenidən vəd verib müharibəyə təhrik edən ölkələr dinc buraxmır, "revanş" götürməyə həvəsləndirirdilər.

Laçın yolu ilə ölkəmizin ərazisinə sərbəst girib-çıxan separatçılar, revanşistlər bu vəziyyətdə "özlərinə xüsusi status" tələb etməyə başladılar. Üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməkdən nümayişkaranə surətdə imtina etdilər. Belə olan halda, təbii ki, Azərbaycan seyrçi durub düşmənin güc toplamasını gözləyə bilməzdi. Gözləmədi də!

2023-cü il aprelin 23-də Azərbaycan sərhədində - Laçın rayonu ərazisində Həkəri çayının üzərində "Laçın" sərhəd-buraxılış məntəqəsi qurdu. Bununla da Azərbaycan ərazi bütövlüyünü tam təmin etdi, fəxarət rəmzimiz üçrəngli, ay-ulduzlu dövlət bayrağımız sərhəddə dalğalandı. "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması böyük Şuşa zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bir zamanlar torpaqlarımızı işğal edən, soydaşlarımızı doğma yurdlarından didərgin salan, onları qətlə yetirən düşmən indi şanlı Azərbaycan bayrağının altından keçərək sərhədçilərimizin önündə dinməz-söyləməz farağat dayanmaq məcburiyyətindədirlər.

"Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasını həzm edə bilməyən hiyləgər düşmən Azərbaycan əleyhinə çirkin təbliğat aparmağa cəhd etdi. Ermənistan və onu himayə edən qüvvələr ölkəmizi guya sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirdilər. Əslində isə, erməniləri qorxuya salan daha ciddi səbəblər var idi. Onlar anladılar ki, artıq Laçın yolu ilə Qarabağa silah-sursat daşımaq mümkün olmayacaq. Qarabağa təbliğat məqsədilə gələn separatçıların və terrorçuların qarşısı bir qayda olaraq alınacaq. "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə tezliklə Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrinin çıxarılması, həmçinin separatçıların tərksilah olunması tezliklə gündəmə gələcək. Bundan başqa, hayları qorxuya salan daha ciddi bir faktor əli azərbaycanlıların qanına batan qatı cinayətkarların çoxunun hələ də Qarabağda olmasıdır. Onlar başa düşürlər ki, öz sərhədlərini möhkəmlədən Azərbaycan bu cinayətkarlardan bir gün törətdikləri qanlı əməllərə görə cavab soruşacaq. Necə ki, Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətmiş qatı cinayətkar Vaqif Cərkəzoviç Xaçaturyan 30 ildən sonra yaxalanaraq Bakıya gətirildi... Heç şübhəsiz ki, növbə digər hərbi cinayətkarlara da çatacaq.

"Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsi bu gün ermənilərin qorxunc yuxusuna dönüb. Onlar ədalətdən qaça bilməyəcəklərini anladıqları üçün qorxurlar. İnsanlığa yaraşmayan hərəkət etdiklərini bildikləri üçün təlaş içindədirlər.

### Azərbaycanın nümunəvi davranışı

Azəbaycan istər 44 günlik Vətən müharibəsi zamanı, istərsə də sonrakı dövrlərdə nümunəvi davranışı ilə ermənilərə dərs verdi. Silahlı qüvvələrimiz 44 günlik Vətən müharibəsi zamanı yalnız hərbi obyektləri vurdu. Bir məktəbi, bir uşaq bağcasını, bir xəstəxananı dağıtmadı. Ermənilərin hərbi məqsədlər üçün istifadə etmədikləri mülki obyektləri də ziyan çəkmədi. Amma ermənilər müharibə zonasından çox-çox uzaq olan şəhərlərimizi raket atəşinə tutdu, mülki, silahsız insanları, körpə uşaqları hədəf seçdi. Azərbaycan əsir düşmüş yüzlərlə ermənini qeyd-şərtsiz Ermənistana təhvil verdi. Müharibədə ölmüş minlərlə erməni əsgərinin cəsədini götürmələri üçün şərait yaratdı. Ermənilər nə etdilər? 2023-cü ildə dumanlı hava şəraitində azaraq Ermənistan ərazisinə keçmiş iki əsgərimizi - Hüseyn Axundov və Aqşin Bəbirovu həbs edərək bütün dünyanın gözü qarşısında onlara ağır işgəncələr verib görüntülərini sosial şəbəkələrdə, KİV-də zövqlə paylaşdılar. Azərbaycan onun müqəddəs bayrağını təhqir edən üç erməni gənci - Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryanı "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsində saxlayıb gənc olmalarını, səmimi etiraflarını, peşmançılıq hissi keçirdiklərini nəzərə alaraq onlara cəmi 10 sutka inzibati cəza verməklə kifayətləndi. Ermənilər isə qondarma ittihamla girov götürdükləri Hüseyn Axundova ömürlük həbs cəzası verdi. Bu gün erməniləri himayə edən Fransa dövləti və digərləri gözlərini açıb fərqi görsələr, pis olmaz.

### Ermənilərin saxta təbliğatları milli və dövlət maraqlarımızın həyata keçirilməsinə mane ola bilməz

Ermənilər də, onları qızışdırıb üstümüzə qaldıranlar da uduzduqlarını dərk etməkdədirlər. Amma yenə də şivən qoparmaqla nəyəsə nail olacaqlarına da ümid edirlər. Azərbaycana qarşı təbliğat aparıb təzyiq etmək niyyətinə düşənlər anlamalıdırlar ki, dövlətimiz üçün Azərbaycanın milli maraqlarının qorunmasından başqa nəyisə təsəvvür etmək absurddur. Dövlətimizin başçısı İlham Əliyev 2023-cü il mayın 1-də ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı da qeyd etmişdir ki, Azərbaycan-Ermənistan sərhədində "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib... Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir... Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacaqdır.

### Başqa yol yoxdur

İstər Ermənistan, istər Qarabağda olan separatçı rejimin rəhbərləri, istərsə də onlara vəd verib oyuna gətirənlər boşuna çaba göstərməsinlər. Azərbaycan Qarabağda yaşayan erməni sakinlərinə doğru yolu göstərib. Onların Qarabağda yaşayıb fəaliyyət göstərmələrinin yeganə yolu Azərbaycana reinteqrasiyadan keçir. Bu yol onlara xoşbəxt gələcək vəd edir. Əgər rəsmi İrəvanın riyakarlıq etmək niyyəti yoxdursa, həqiqətən də bölgənin sadə sakinlərini düşünürsə, Qarabağda yaşayan ermənilərin taleyi ilə siyasi manipulyasiya etmək istəmirsə, onda onlara təklif olunan Ağdam-Xankəndi yolu ilə yüklərin Qarabağ bölgəsinə çatdırılmasına başlasın. Amma görünən budur ki, nə rəsmi Ermənistanı, nə də Ermənistandan bir alət kimi istifadə edən Fransanı Qarabağda yaşayan erməni əhalisinin taleyi düşündürmür.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# *Ayxan HACIZADƏ:* "Fransa tərəfini təhrikçi və təxribatçı fikirlərə son qoymağa çağırırıq"

"Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın bölgədə sülh və sabitliyə xidmət etməyən, birtərəfli ermənipərəst mövqe sərgiləyən bu kimi açıqlamaları qəbuledilməzdir".

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Katrin Kolonanın səfirlər konfransında çıxışı zamanı səsləndirdiyi fikirlərə dair yerli medianın sualına cavab olaraq deyib.

"Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarının işğalına, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinə, soyqırımı və kütləvi qırğınların həyata keçirilməsinə, bir milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsinə və hüquqlarının tapdalanmasına, Azərbaycanın şəhər və kəndlərinin viran qoyulması və talan edilməsinə, Azərbaycana məxsus mədəniyyətin və tarixi abidələrin dağıdılmasına, 2020-ci il müharibəsindən sonra isə Ermənistanın həyata keçirdiyi hərbi-siyasi təxribatlara son qoymaması, Azərbaycan ərazilərindən silahlı qüvvələrinin hələ də tam çıxarılmaması kimi faktlara göz yumulması qanunsuz və qeyri-əxlaqi yanaşmanın nümunələridir", - deyə Azərbaycan XİN rəsmisi diqqətə çatdırıb.

O qeyd edib ki, Azərbaycan Respublikası milli qanunvericiliyi çərçivəsində Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ölkəmizin siyasi, sosial və iqtisadi sferalarına reinteqrasiyası istiqamətində səy göstərir və bu səylərə qarşı maneçilik törədilməsi, guya erməni sakinlərin bölgədən qovulması istiqamətində siyasət həyata keçirildiyi barədə iddialar səsləndirilməsi tamamilə yanlışdır.

"Bir daha Fransa tərəfini bu kimi təhrikçi və təxribatçı fikirlərə son qoymağa çağırırıq", - deyə Ayxan Hacızadə vurğulayıb.

Qeyd edək ki, Fransanın Avropa və xarici işlər naziri Katrin Kolona səfirlər konfransında çıxışı zamanı "Dağlıq Qarabağın əhalisinə orada yaşamaq imkanı verilməsi, habelə onların hüquqlarına, mədəniyyətlərinə və tarixlərinə hörmət edilməsi istiqamətində səylərin səfərbər olunduğunu" və "Dağlıq Qarabağdan ermənilərin kütləvi axınının təhrik olunması məqsədilə həyata keçirilən sıxışdırılma strategiyasının qanunsuz və qeyri-əxlaqi olduğunu" bildirib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, mədəniyyət naziri Adil Kərimli avqustun 29-da Tovuz rayonunda vətəndaşlarla görüşüb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Tovuz rayon Nizami adına Mədəniyyət evində keçirilən qəbulda əsasən Tovuz, Ağstafa, Qazax, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Mədəniyyət Nazirliyinin məsul əməkdaşlarının da iştirakı ilə keçirilən görüşdə vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib. Müraciətlər əsasən işlə təminolunma, tarixi abidələrin vəziyyəti ilə bağlı təklif, ortaya çıxan problemlərin həlli və digər məsələlərlə bağlı olub.

Vətəndaşları ayrı-ayrılıqda dinləyən nazir bütün müraciətlərin araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi həssaslıqla yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməniəsilli şəxslər üçün humanitar yardım yola salıb



Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməniəsilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Bakıdan humanitar yardım yola salıb.





AZƏRTAC xəbər verir ki, humanitar yardım karvanında ilkin mərhələ üçün 40 ton un məmulatları var.

"Avqustun 21-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti İdarəetmə Şurasının qərarına uyğun olaraq bəyanat imzalamışıq. Bəyanatımızın məqsədi irqindən, dinindən, milliyyətindən asılı olmayaraq hər bir insana yardımçı olmaqdır. Həmin bəyanatdan sonra bu məsələ diqqətimizdədir və hazırda humanitar yardım göndəririk. Qızıl Aypara Cəmiyyətinin rəhbər işçiləri, o cümlədən könüllülərimiz Ağdam-Xankəndi yoluna doğru irəliləyəcək", - bunu jurnalistlərə açıqlamasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan deyib.

Təşkilat rəhbəri bildirib ki, bu addımın Xankəndidə yaşayan ermənilər və beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanacağına ümid edir: "Gələcəkdə qiymətləndirmə prosesini həyata keçirə bilsək, onların digər ehtiyacı olduğu ləvazimatları da çatdıra bilərik".

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları Ağdam-Xankəndi yolunda gecələmək üçün çadırlar qurublar



Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) əməkdaşları Ağdam-Xankəndi yolunda gecələyəcəklər.

AZƏRTAC xəbər verir ki, artıq Rusiya sülhməramlılarının Ağdam-Xankəndi yolunun üzərindəki postu ilə üzbəüz istiqamətdə çadırlar quraşdırılıb. Həmin çadırlarda AzQAC əməkdaşları, könüllülər gecələyəcəklər.

Humanitar yardımın Xankəndiyə çatdırılması ilə bağlı qurumun əməkdaşları Azərbaycan ərazisində müvəqqəti məskunlaşan Rusiya sülhməramlıları ilə danışıqlar aparıblar. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş katibi Ceyhun Mirzəyev bildirib ki, humanitar yükün Xankəndiyə çatdırılmasına şərait yaradılması üçün Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə müzakirələr davam etdirilir. O deyib: "Bizə bildirdilər ki, məsələ bu axşam həll olunmayacaq, bizdən vaxt istədilər. Biz isə humanitar məqsəd və missiyamızı bir daha Rusiya sülhməramlılarının komandanlığına çatdırdıq. Vəziyyətdə hər hansı dəyişiklik olsa, bizə məlumat veriləcəyini söylədilər".

# *İcma:* "Fransa Prezidentinin və xarici işlər nazirinin açıqlamaları rəsmi Parisin Azərbaycana düşmən münasibəti davam etdirdiyini göstərir"

"Fransa Prezidenti və xarici işlər nazirinin son açıqlamaları bir daha onu göstərir ki, rəsmi Paris bütün səviyyələrdə və platformalarda Azərbaycana qarşı düşmən münasibətini davam etdirir. İrqçiliyə qarşı etirazları polis gücü ilə yatıran və bu hadisələr fonunda dünyada imici darmadağın olan, Afrika qitəsində dalbadal biabırçı məğlubiyyətlərə düçar olaraq ölkələrdən qovulan Fransa, görünür, Azərbaycana qarşı hansısa addımların atılması ilə təskinlik tapmaq istəyir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının Fransa Prezidenti və xarici işlər nazirinin qərəzli açıqlamaları ilə bağlı bəyanatında bildirilib.

Bəyanatda qeyd olunub: "Fransa xarici işlər nazirinə xatırladırıq ki, "əxlaqsızlıq" Əlcəzairdə soyqırımı törədən, müxtəlif tayfaları məhv edən, əlcəzairli azadlıq döyüşçülərinin kəllələrini hərbi qənimət kimi Parisdə muzeydə saxlayan, özündən min kilometrlərlə uzaqda yerləşən əraziləri hələ də müstəmləkə işğalında saxlayan, Sakit okeanda keçirdiyi nüvə silahı sınaqları ilə müxtəlif xalqlara və ətraf mühitə zərərlər yetirən, Korsika dilini qadağan edən Fransanın hərəkətidir.

Ermənistanın 1987-1991-ci illərdə azərbaycanlıların hamısını öz ərazisindən vəhşicəsinə qovmasına, 1991-1994-cü illərdə Azərbaycan ərazilərini işğal etməsinə, oradan 800 minə yaxın azərbaycanlını qovmasına, Azərbaycanın 900-dən artıq şəhər və kəndini Yer üzündən silməsinə, 20 mindən artıq azərbaycanlını qətl etməsinə, Qaradağlı, Xocalı, Malıbəyli, Meşəli, Ağdabanda qətliamlar törətməsinə göz yuman Fransa xarici işlər nazirinin indi Azərbaycanı "etnik təmizləmə" niyyətində olmaqda ittiham etməsi bu əxlaqsız siyasətin növbəti təzahürüdür.

Artıq bütün dünyaya aydındır ki, Fransa Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasını istəmir və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyasını əngəlləməyə çalışır. Fransa mənəviyyata, beynəlxalq hüquqa həqarət olan islamofobiya, Azərbaycanofobiya siyasətinə, məsələlərə dini təəssübkeşlik prizmasından yanaşmağa son qoymalıdır.

Qərbi Azərbaycan İcması tarixi soyqırımı, müstəmləkəçilik və ədalətsizliklərlə dolu Fransanın öz siyasətinin mənfur mahiyyətini pərdələmək üçün insan hüquqları kimi nəcib dəyərlərdən sui-istifadə etməsinə imkan verməyəcək və onun ikili standartlar maskasını yırtmaqda davam edəcək".

## "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Əbədi qayıdışın Laçın ünvanı

İşğaldan azad olunmuş ərazilərimizə Böyük qayıdış sürətlə davam edir. Avqustun 29-da Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı zəfər nəticəsində daha 13 ailə (52 nəfər) 30 ildir həsrətini çəkdikləri yurdlarına qovuşublar. Bununla da Laçın şəhərində 247 ailə - 956 nəfərin daimi məskunlaşması təmin edilib.



Doğma torpaqlarına geri dönən laçınlılar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

### "Biz bundan sonra öz yurdumuzda ömür sürüb, gözəl günlərə şahidlik edəcəyik"

Dünən dədə-baba yurdlarına qovuşan ailələr Laçın şəhərində vaxtilə yaşadıqları və işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən, yenidən tikilən evlərdə məskunlaşıblar.

Laçın sakini Gülnaz Umudova deyir ki, uzun illər çəkdikləri həsrətə son qoyuldu: "Laçından ayrılanda 22 yaşım vardı. Bu gün isə 54 yaşında öz doğma yurduma qayıdıram".

Digər Laçın sakini Bəsdi Hacıyeva söyləyir ki, 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın geri alınması xəbərini eşidəndə sevinc göz yaşı axıdıb: "Eyni hissləri Laçının da azad edilməsi xəbərini eşidəndə yaşadıq. Vətən uğrunda canını fəda edənlərin qanı yerdə qalmadı, Allah şəhidlərimizə rəhmət etsin".

Doğma yurduna qovuşan Telman Mirzəyev deyir ki, Laçından didərgin düşəndən sonra çox əziyyət çəksələr də, indi yurdlarına qürur hissi ilə qayıdırlar: "Biz bundan sonra öz yurdumuzda ömür sürüb, gözəl günlərə şahidlik edəcəyik".

### Xüsusi tarix

Avqustun 26-da laçınlılar üçün xüsusi tarix olan Laçın Şəhəri Günü təntənəli şəkildə ilk dəfə qeyd olunub. Artıq bir ildir ki, Laçın şəhərinin mərkəzində Azərbaycanın dövlət bayrağı dalğalanır.

Xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamına əsasən, Qarabağ və Şərqi Zəngəzurdakı şəhərlərimizin işğaldan azad edildiyi tarixlər şəhər günü kimi təsis edilib. Bundan sonra Azərbaycan xalqı hər il bu xüsusi günləri sevinclə, qürurla qeyd edəcək.

Bu əlamətdar gündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva laçınlıların yanında olub, Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq meydanının qarşısında keçirilən Laçın Şəhəri Günü bayram şənliklərində iştirak ediblər.

Laçınlıları bayram münasibətilə təbrik edən Prezident deyib: "Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq".

### Əbədi qayıdış

Vətən müharibəsindən ötən üç ilə yaxın müddətdə Prezident İlham Əliyevin birbaşa nəzarəti ilə Qarabağ və Şərqi Zəngəzurda görülən işlərin nəticəsidir ki, Böyük Qayıdış üzrə I Dövlət Proqramı sürətlə icra olunur. İndiyədək ağalılıların, talışlıların, füzulililər və laçınlıların yurd-yuvalarına köçü həyata keçib. Növbəti mərhələlərdə işğaldan azad edilmiş digər şəhər və rayonlarımız da əzəli sahiblərinə qovuşacaqlar.

Bütün istiqamətlərdə uğurla inkişaf etdirilən Böyük qayıdış hazırda dövlət siyasətinin əsas prioritetlərindəndir. 30 il ərzində haqları tapdanmış, ermənilər tərəfindən başlarına faciə, qətliamlar gətirilmiş, torpaqlarından didərgin salınmış vətəndaşlarımız Prezident İlham Əliyevin bərpa etdiyi ərazi bütövlüyü, ədalət sayəsində öz el-obalarına qayıdırlar. Bu qayıdış əbədi qayıdışdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Laçından olan daha 13 ailə doğma yurduna qovuşub



Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb.







Laçın şəhəri dünən 13 ailəyə qucaq açıb və daha 52 nəfər laçınlının yurd həsrəti sona çatıb. Otuz bir ildən sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub. Onlar şəhərdə böyük coşqu ilə qarşılanıblar, illərdir həsrətini çəkdikləri Laçının gözəl mənzərəsini seyr ediblər. Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər. Laçına qədəm qoyan ailələr qarşılandıqdan sonra Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən ailələrə evlərin açarları təqdim olunub və onlar sevinc hissi ilə açarları təhvil alıblar.

***AZƏRTAC***






# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanın sosial xidmət sistemi yeni inkişaf mərhələsinə keçir

Xəbər verildiyi kimi, "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Dövlət proqramında əhalinin bütün həssas qruplarına göstərilən sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılmasının təmini, həmçinin sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi hədəf kimi nəzərdə tutulub.



Ümumiyyətlə, Azərbaycanda da sosial sahədə keçirilən islahatlar vətəndaşların yaşayışının və rifah halının yaxşılaşdırılmasına xidmət edir. Mədsəd iqtisadi və hüquqi mexanizmin modernləşdirilməsi əsasında sosial xidmətləri ehtiyacı olan vətəndaşlar üçün kifayət qədər keyfiyyətli və əlçatan səviyyəyə çatdırmaqdır. Ölkənin sosial xidmət sistemini beynəlxalq norma və standartlara uyğun olaraq təkmilləşdirmək və sosial xidmətlərin göstərilməsinin ünvanlılığını təmin etmək də dövlət proqramının əsas hədəflərindəndir.

Heç kimə sirr deyil ki, son illər ölkəmizdə əhalinin etibarlı sosial müdafiəsi istiqamətində mühüm işlər görülmüşdür. Azərbaycan müxtəlif səbəblərdən çətin həyat şəraitinə düşmüş insanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə aidiyyəti beynəlxalq və regional təşkilatlar, müxtəlif qurumlar tərəfindən qəbul olunmuş dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilə və sazişlərə qoşulmuşdur. Bu bir tərəfdən insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların sosial hüquqlarının qəbul olunmuş beynəlxalq prinsip və normalar əsasında reallaşdırılmasına təminat verməkdirsə, digər tərəfdən sosial xidmət müəssisələri şəbəkəsinin genişləndirilməsi, qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan yeni sosial xidmət modellərinin yaradılması deməkdir.

Dövlət proqramında nəzərdə tutulan məsələlərdən biri də ən müasir texnologiyaların, sosioloji və digər çağırışların innovativ üsullarla tətbiq edilməsini önə çıxarmaqdır. Təbii ki, bu zaman insan kapitalına söykənən müasir sosial təminat sisteminə üstünlük verilməlidir. BMT-nin hələ 2015-ci ilin sentybrında keçirilən Dayanıqlı İnkişaf Sammitində üzv dövlətlər tərəfindən "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" qəbul edilmişdir. Gündəlikdə irəli sürülən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bütün imkanları səfərbər etməklə "heç kəsi kənarda qoymamaq" prinsipinə əsaslanaraq insan həyatının və fəaliyyətinin bütün istiqamətlərində, o sıradan yoxsulluğun azaldılması və sosial təminat sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün birgə səylərin göstərilməsi barədə razılıq əldə edilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi ilk növbədə belə qənaətə gəlməyə əsas verir ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Dövlət başçısı hər çıxışında sosial güvənliyin artırılmasını dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək vurğulayır ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq. Bu baxımdan qəbul olunmuş sözügedən dövlət proqramında sosial xidmət sisteminin mövcud vəziyyəti ilə əlaqədar məsələlər də yer alıb. Sosial xidmət çətin şəraitdə yaşayanların sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində reallaşdırılan kompleks tədbirlərdir. Xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan ibarətdir.

"Sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nda qeyd olunur ki, son illər həyata keçirilmiş uğurlu sosial siyasət nəticəsində həssas əhali qruplarından olan şəxslərin sosial xidmətlərlə təminatında mühüm nailiyyətlər əldə edilib. Yeri gəlmişkən, qeyd edək ki, həssas əhali qrupuna daxil olanlar bunlardır: valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar və bu səbəbdən sosial xidmət müəssisələrində yaşayanlar, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yeri olmayan şəxslər və əlilliyi olan uşaqlar, baxımsızlığa və sosial təhlükəli vəziyyətə məruz qalmış, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslər, insan alveri qurbanları və məişət zorakılığından zərərçəkmişlər, müəyyən yaşayış yeri olmayan, ağır məhrumiyyət keçirənlər.

Ölkədə həyata keçirilən sosial siyasət nəticəsində bu qrupdan olan şəxslərin normal həyat şəraitinə qayıtması imkanları artmışdır. Götürək sosial xidmətə ehtiyacı olan uşaqları. Məlumdur ki, Azərbaycanda uşaqların sosial müdafiəsi ilə bağlı vaxtaşırı təşəbbüslər irəli sürülür, müxtəlif tədbirlər həyata keçirilir. Həyata keçirilən bütün bu layihələrdə məqsəd sivil və ümumbəşəri dəyərləri yüksək tutaraq uşaqların münasib şəraitdə böyüyüb tərbiyə edilmələrinə, eləcə də onların layiqli vətəndaş kimi formalaşmalarına nail olmaqdır. Bunun üçün ixtisaslaşdırılmış sosial xidmət müəssisələri tərəfindən uşaqlar sığınacaq və reinteqrasiya xidmətləri ilə təmin edilir, onların təhsil və peşə hazırlığı, sosial reabilitasiyası təşkil olunur, onlara hüquqi, psixoloji yardım göstərilir və s. Uşaqlarla bağlı dövlət siyasətinin əsas hədəflərindən biri də uşaq müəssisələrində yaşayan uşaqların ailə mühitində böyüməsinin təmin edilməsi, onların stasionar uşaq müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsidir. Sosial xidmət sistemində əlilliyi olan uşaqlara diqqət və qayğıkeşlik xüsusi yer alır. Bu cür uşaqların hətta xarici ölkələrdə müalicə almaları təşkil olunur. Son illər həmin kateqoriyadan olan 386 uşağın xarici ölkələrdə ixtisaslaşmış reabilitasiya kursu keçməsi də bunu təsdiq edir. Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin məzunu olan gənclərin yaşayış problemlərinin həlli də unudulmur. Bu məqsədlə çoxmənzilli binalar inşa edilərək həmin kateqoriyadan olan 590 gəncin istifadəsinə verilmişdir.

Belə misalları həssas kateqoriyadan olan digər şəxslərlə bağlı da çəkmək olar. Amma elə qeyd etdiklərimiz də kifayətdir ki, Azərbaycanda sosial xidmətlərin keyfiyyəti və əlçatanlığının kifayət qədər yüksək səmərə verdiyini iddia edək. Həm də onu iddia edək ki, yeni qəbul olunan dövlət proqramı bu səmərənin daha da artırılmasına yönəlib.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## ƏƏSMN dövlət proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirəcək

**Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı" ölkəmizdə sosial xidmətlər sistemində yeni inkişaf mərhələsinə keçidi şərtləndirir.**

Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) bu dövlət proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirəcək.

2026-cı ilin sonunadək hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin və bu sahədə ixtisaslı kadr potensialının formalaşması, sosial xidmətlərin əhatəsinin genişlənməsi, ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması yeni dövlət proqramının əsas hədəf göstəriciləridir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sistemi ilə bağlı qanunvericilik bazasının təkmilləşəcəyi, həssas əhali qruplarına göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinin artacağı gözlənilir. Eləcə də müntəzəm həyata keçirilən profilaktik abilitasiya və reabilitasiya tədbirləri stasionar sosial xidmətə ehtiyacı olan şəxslərin sayının azalmasına imkan verəcək.

Həmçinin proqram üzrə görüləcək tədbirlər xidmət təklifinin artması ilə rəqabət mühitinin güclənməsinə səbəb olacaq. Bu da öz növbəsində sosial xidmətlərin keyfiyyətinə müsbət təsir göstərəcək. Dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının ildən-ilə artırılması, innovativ texnologiyaların tətbiqi ilə sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılması da nəzərdə tutulur.

Yeni dövlət proqramı ilə sosial xidmət sahəsində elektron xidmətlərin təkmilləşməsi və yeni e-xidmətlərin tətbiqi, sosial xidmət infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması, sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, bu sahədə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və s. nəzərdə tutulur.

## 38 KOB subyektinin Azərbaycanda və xarici ölkələrdə keçirilən 4 sərgidə ödənişsiz iştirakı təmin edilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən təmin edilən KOB-ların satış imkanlarının genişləndirilməsinə dəstək mexanizmlərindən cari ilin yanvar-iyun aylarında 50-yə yaxın mikro, kiçik və orta sahibkarlıq subyekti yararlanıb.**

Sərgilərdə iştiraka dəstəkdən istifadə etmək üçün bu dövrdə KOB subyektlərindən agentliyə 121 müraciət daxil olub. Onlardan müvafiq tələblərə cavab verən 38 KOB subyektinin Azərbaycanda və xarici ölkələrdə keçirilən 4 sərgidə (3-ü ölkədə, 1-i xaricdə olmaqla) ödənişsiz iştirakı təmin edilib.

KOBİA-dan verilən məlumatda daha sonra bildirilir ki, cari ilin yanvar-iyun aylarında ticarət şəbəkələrinə çıxışa dövlət dəstəyi mexanizmindən yararlanmaq üçün agentliyə KOB subyektlərindən 38 müraciət daxil olub ki, onlardan müvafiq qaydalara uyğun olan 6 KOB-a dəstək göstərilib. Bu dövrdə ticarət şəbəkələrinə çıxışa dəstək mexanizmi üzrə satış yerlərinin sayı artırılaraq 6-ya çatdırılıb.

## Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun laboratoriyası akkreditasiya attestatı alıb

**Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun "Funksional analizlər" laboratoriyası sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətlərinə dair ümumi tələblər standartına uyğun akkreditasiyadan keçib.**



Laboratoriya sınaq fəaliyyətinin həyata keçirilməsi üçün AZS İSO/İEC 17025 :2020 standartına uyğun akkreditasiya attestatı alıb.

İnstitutun laboratoriyası müvafiq akkreditasiyadan keçməklə gübrə, pestisid, torpaq, su, bitki, meyvə, tərəvəz, toxum sahələri əsasında uyğunluğun qiymətləndirilməsi fəaliyyəti ilə məşğul olmaq hüququ qazanıb.

Qeyd edək ki, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun laboratoriyalarında ən müasir cihaz və avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar torpaq, su, pestisid, virus, azot-protein, nişasta və bir sıra digər analizlərin həyata keçirilməsinə imkan verir. Burada həmçinin virussuz kartof toxumçuluğunun müasir səviyyədə təşkili üçün biotexnologiya laboratoriyası da qurulub. İnstitut Dünya Tərəvəzçilik Mərkəzi (AGRDC, Tayvan), Beynəlxalq Kartofçuluq Mərkəzi (CİP, Peru), Belarus Genetika və Sitologiya İnstitutu, Ümumrusiya Elmi-Tədqiqat Seleksiya və Toxumçuluq İnstitutu (VNİSSOK), Hubey Bio-Texnologiya Peşə Kolleci və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

## "Azeri Light"ın qiyməti dəyişməyib

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,07 dollar azalaraq 84,35 dollara düşüb.

Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,12 dollar ucuzlaşaraq 79,98 dollar təşkil edib.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti isə dəyişməyərək 88,56 dollar olub.

## "Şahdəniz" proqnozları doğruldur

### Yataqdan 200 milyardıncı kubmetr qaz hasil edildi

"Şahdəniz" yatağından hasilata başlandığı vaxtdan indiyədək ümumilikdə 200 milyard kubmetr qaz əldə olunub. Bu, Azərbaycanı dünyada qaz ixrac edən ölkə kimi tanıdan "Şahdəniz"in növbəti uğurudur. 200 milyardıncı kubmetr qazın yataqdan ilk kommersiya qazının çıxarıldığı və Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) istismara verildiyinin elan edilməsindən 16 il yarım sonra əldə olunması xoş bir təsadüfdür.



"Şahdəniz" dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir. Yataq 1999-cu ildə kəşf edilib. İlkin hesablamalara görə, onun bütövlükdə 1 trilyon kubmetrdən çox qaz və 2 milyard bareldən çox kondensat ehtiyatı var. Təxminən 860 kvadrat kilometr sahəsi olan bu nəhəng mavi yanacaq mənbəyinin işlənməsi iki mərhələdə həyata keçirilir.

Yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində hasilata 2006-cı il dekabrın 15-də başlanıb. Həmin vaxtdan bəri "Şahdəniz-1" qazı ahəngdar və etibarlı şəkildə Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına çatdırılır.

Növbəti mərhələ 2018-ci ildən, yəni "Şahdəniz-2" layihəsindən Türkiyəyə ilk kommersiya qaz həcmləri nəqlinin başlandığı və iyulun sonunda "Şahdəniz Bravo" platformasından ilk qaz hasilatının əldə olunduğu vaxtdan istismardadır.

"Şahdəniz-2"nin işə salınması Azərbaycana öz enerji tarixində ilk dəfə olaraq Avropanın əsas qaz təchizatçılarından birinə çevrilmək imkanı yaratdı. 2020-ci ilin dekabrından başlayaraq "Şahdəniz" qazı həm də Avropaya nəql olunur, yeni enerji təchizatı mənbəyi kimi bu qitənin enerji bazarını şaxələndirir və enerji təhlükəsizliyini möhkəmləndirir. Avropanın Azərbaycan qazına tələbatı getdikcə artır. Başqa sözlə, "Şahdəniz" Xəzər ehtiyatlarını ilk dəfə olaraq birbaşa Avropa qaz bazarlarına çatdıran "Cənub qaz dəhlizi"nin başlanğıc nöqtəsidir. Xatırladaq ki, bu dəhliz bir-biri ilə qovuşan üç kəmərdən - genişləndirilmiş CQBK-dan, TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarətdir.

"Şahdəniz" layihəsinin əməliyyatçısı olan bp şirkətinin məlumatına görə, əməliyyatlara başlandığı vaxtdan indiyədək yataqdan 42,4 milyon ton (342 milyon barel) kondensat hasil edilib.

Qeyd edək ki, "Şahdəniz-2" Xəzər dənizində ilk sualtı işlənmə layihəsidir və dünyada bp şirkətinin idarə etdiyi ən iri, həmçinin ən mürəkkəb sualtı infrastrukturdur. Bununla belə, ümumiyyətlə, "Şahdəniz" layihəsi üzrə yüksək texniki təhlükəsizlik göstəricilərinə nail olunub. Layihə çərçivəsində ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə 20 və dəniz, quru və sahilyanı ərazilər üzrə 54 monitorinq tədqiqatları aparılıb.

2023-cü il "Şahdəniz" üçün daha bir mühüm hadisə ilə əlamətdar olacaq. Belə ki, bu ilin dördüncü rübündə yatağın şərq-şimal cinahının istismara verilməsi planlaşdırılır. Bununla da yataqda əlavə "Şahdəniz-2" quyuları işə salınacaq.

Hazırda "Şahdəniz Alfa" (birinci mərhələ, 11 quyu) və "Şahdəniz Bravo" (ikinci mərhələ, 14 quyu) platformalarından ümumilikdə gündə orta hesabla 72,6 milyon kubmetr qaz hasil edilir.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda hasilat üzrə vitse-prezidenti Elxan Məmmədov deyir: "bp olaraq "Şahdəniz"lə qürur duyuruq. Bu, dünya səviyyəli nəhəng bir yataqdır, lakin eyni zamanda istismar baxımından ən çətinlərdən biridir. Bununla belə onun işlənməsi zamanı üzləşdiyimiz çətinliklərə baxmayaraq, ən mürəkkəb hövzələrdən birində ən çətin quyuları qazmağın və yatağı regional və qlobal bazarlarla birbaşa əlaqələndirmək üçün dünya səviyyəli infrastruktur qurmağın öhdəsindən gələ bildik. Hazırda biz "Şahdəniz"də mövcud məhsuldar layların altındakı "Pre-Fasila" layına yeni bir quyu qazırıq. Ümid edirik ki, həmin quyu "Şahdəniz"in uzunmüddətli hasilat ömrünü təmin etmək planlarımıza dəstək verməklə yeni işlənmə imkanları yaradacaq".

Bütün göstəricilərə təhlükəsiz, ətraf mühitə ziyan vurmadan və səmərəli şəkildə nail olunması xüsusi qürur doğurur. "Şahdəniz" sıfır emissiya məqsədlərinə doğru irəliləyərkən enerji keçidi istiqamətində həm bp-nin, həm də Azərbaycanın səylərinə töhfə verən dəyərli bir layihə kimi uğurlarını davam etdirir. Odur ki, "Şahdəniz"in daha böyük gələcəyinə böyük inam var.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC Ağdamda yenidənqurma işlərini davam etdirir

Cənab Prezident İlham Əliyevin tapşırıqları əsasında "Azərişıq" ASC-nin əsas prioritetlərindən biri işğaldan azad olunmuş rayonlarımızda elektrik şəbəkələrinin tikintisi və yenidənqurma işləridir.

Tapşırıqlara əsasən, Ağdamda bu gün işlər sürətlə davam etdirilir. Artıq şəhər mərkəzinin elektrik təchizatı üçün 35 kv-luq hər birinin gücü 4x2500 kVA olan iki ədəd transformator yarımstansiyasının tikintisi başa çatıb. Əlaqələndirici 35 kV-luq kabel xətlərinin çəkilişi üçün yolların şəhərsalma planına uyğun olaraq vahid səviyyəyə gətirilməsi gözlənilir. Ağdamın Sarıcalı, Xıdırlı və Kəngərli kəndlərinə 35 kV-luq elektrik xətlərinin çəkilişinə isə yaxın günlərdə başlanacaq.

Ağdam şəhərində yeni Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməli qoyulub, tikintisinə başlanılıb. Elektrik şəbəkələrinin Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin yüksəldilməsinə zəmin yaradacaq. Təlim-Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiqi və istismarı qaydaları, peşə vərdişlərinin formalaşdırılması, real iş şəraitində təlim və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə cənab Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan obyektlərdə işlərin gedişinə və elektrik təsərrüfatının yenidən qurulmasına nəzarət daha da gücləndirilib.

# Azərbaycanın üç taekvondoçusu beynəlxalq yarışda finala yüksəlib

Azərbaycanın üç taekvondoçusu Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında finala yüksəlib.



AZƏRTAC xəbər verir ki, 54 kiloqram çəki dərəcəsində çıxış edən Səyyad Dadaşov yarımfinalda yerli idmançı Aram Muradyanı məğlub edərək həlledici görüşə vəsiqə qazanıb.

68 kiloqramda yarışan Vaqif Hacıyev Danil Arsentevə (Rusiya), 80 kiloqramda mübarizə aparan Eltac Qafarov isə Artyom Melnikova (Rusiya) 2:0 hesabı ilə qalib gələrək finala adlayıblar. Pərviz İsgəndərov (68 kiloqram) isə digər rusiyalı Sergey Kirsanova 0:2 hesabı ilə uduzub və bürünc medalla kifayətlənib. Qeyd edək ki, avqustun 31-dək davam edəcək Beynəlxalq Universitet İdman Festivalı Yekaterinburq şəhərinin 300 illik yubileyinə həsr edilib. 36 ölkədən müxtəlif universitetlərin tələbələri 14 idman növündə qüvvələrini sınayırlar.

Festivalda Azərbaycanı 10 təhsil ocağından 54-ü kişi 15-i qadın olmaqla 69 idmançı təmsil edir. Təmsilçilərimiz 8 idman növündə - badminton, stolüstü tennis, boks, güləş, taekvondo, futzal, üzgüçülük, sambo üzrə yarışırlar.

# Azərbaycan ombudsmanı həbs edilən erməni futbolçulara baş çəkib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə başçəkmələr davam etdirilir.



Ombudsman Səbinə Əliyeva və onun Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən keçirilən növbəti başçəkmədə məqsəd inzibati qaydada həbs edilmiş şəxslərin saxlanma şəraiti, onlarla rəftar və hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olub.

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, MPQ-nin ixtisasca həkim və psixoloq üzvlərinin də iştirak etdiyi başçəkmə çərçivəsində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində saxlanılan və 10 gün müddətinə inzibati qaydada həbs olunan üç nəfər - Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryan da qəbul edilib.

Ombudsman konfidensial qəbul zamanı həmin şəxslərin beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmini vəziyyətini öyrənib və müraciətlərini dinləyib. Eyni zamanda onların saxlanıldığı kameraya və gəzinti yerinə baxış keçirilib, saxlanma şəraitinin standartlara uyğun olduğu müəyyən edilib.

Qəbul edilmiş şəxslər saxlanma şəraitindən, onlarla rəftardan, qidalanmadan, habelə tibbi-psixoloji yardımdan razılıqlarını bildiriblər. Başçəkmənin gedişində həmin şəxslərin ailə üzvləri ilə telefon danışığı da təmin edilib.

İnzibati qaydada həbs edilmiş şəxslərə hüquqları, Azərbaycan ombudsmanının səlahiyyətləri izah olunub, ombudsmanın 9162 Çağrı mərkəzinə müraciət imkanlarına dair məlumatlandırıcı nəşrlər, öz dillərində insan hüquqları sahəsində qanunvericilik aktları və beynəlxalq sənədlər təqdim edilib.


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Sumqayıt şəhər 36 nömrəli 1296 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satın alınması ilə bağlı

### *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı:** "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
**Kod:** 805603
**VÖEN:** 9900001881
**M/h:** AZ03NABZ01350100000000002944
**S.W.I.F.T.** İBAZAZ 2X
**H/h:** AZ88IBAZ38030019441856517211
**VÖEN:** 1500016711

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 03 oktyabr 2023-cü il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 11 oktyabr 2023-cü il saat 11:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 12 oktyabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***



## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Keçmiş hərbi xunta Hayastanı fəlakətə sürükləyir

## Separatçılar arasında qarşıdurma getdikcə kəskinləşir

Hayastanda revanşist qüvvələr sülh müqaviləsinin imzalanması prosesinin baş tutmaması üçün məkrli niyyətlərini aşkarda nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Çünki etiraz aksiyalarından yararlanmağa çalışan, ölkədə nüfuzunu itirən keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə xalq heç önəm belə vermir. Bununla belə, onlar vəziyyəti gərginləşdirməkdə israrlıdırlar.

Bu fonda uzun illər Hayastanın xarici siyasətinə rəhbərlik edən Vardan Oskanyan son vaxtlar daha da "fəallaşıb". Əsasən, feysbuk sosial şəbəkəsini özünə tribuna seçən Oskanyan mütəmadi olaraq ölkənin xarici siyasətini analiz edir və Paşinyanın mövqeyinə iradını bildirir. İctimai rəyə hesablanan bu açıqlamalar məqsədli şəkildə tirajlanır.

O, özünün feysbuk səhifəsində yazdığı açıqlamaları ilə yenidən gündəmə gəlib. Sərsəmləmələri ilə diqqət çəkən Oskanyan deyib ki, hələ də həll olunmayan Hayastan - Azərbaycan "münaqişəsində" ermənilərin əlində yalnız bir vasitə var. Bu da sülh müqaviləsindən imtina etməkdir. Təbii ki, bu rıçaq xeyli zəifləyib, çünki Hayastanın hakimiyyət orqanları hansı sənədi imzalayacaqlarını əvvəlcədən bəyan ediblər: "Onlar Qarabağın Azərbaycanın bir hissəsi olduğunu əvvəlcədən bildiriblər. Amma bütün bunlara baxmayaraq, həmin bəyanatların hüquqi əsası yoxdur. Çünki hər şey şifahidir, yazılı şəkildə öz əksini tapmayıb. İndi həmin variantlardan maksimum istifadə etmək imkanımız qalır. Ancaq bundan elə istifadə etməliyik ki, yeni bir müharibəyə səbəb olmasın. Bu imkandan istifadə üsulu ciddi təhlükələr ehtiva edir, müharibə ehtimalı gündən-günə artır. Açığı, Nikol Paşinyanın nə düşündüyünü bilmirəm. Siyasi şərhçilər onun heç vaxt sülh müqaviləsinə imza atmayacağını, bəziləri isə bir gün əvvəl imzalamağa tələsdiyini deyir. Hər halda hesab edirəm ki, Paşinyan üçün belə bir sənədi imzalamaq asan olmayacaq. Ona görə də mən, sadəcə, xahiş edirəm, yalvarıram ki, bugünkü danışıqlara yanaşmanı dəyişin. Hayastan ciddi təhlükə astanasındadır".

Daha sonra BMT TŞ-də heç bir sənədin qəbul edilməməsinə toxunan keçmiş XİN başçısı bunu Hayastan üçün çox ciddi məğlubiyyət adlandırıb. TŞ-dən gözləntiləri böyük olan erməni xalqının dünya birliyindən rədd cavabı alması Oskanyanı qayğılandırır: "Erməni cəmiyyəti böyük ümidlərlə BMT Təhlükəsizlik Şurasının növbədənkənar iclasını gözləsə də, toplantı bizim üçün məyusluqla başa çatdı. Heç bir qətnamə və ya bəyanat qəbul olunmadı. Bundan sonra da Azərbaycanı Laçın yolunu açmağa məcbur edəcək qətnamənin olub-olmayacağı sual altındadır".

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər ara qızışdıranların bu cür sərsəm bəyanatlar verməsi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil.

Ermənistan mətbuatı həmçinin separatçılar arasında savaşın getdikcə daha da qızışdığını yazır. "Hraparak" qəzeti yazır ki, avqustun 28-də gecə saatlarında naməlum şəxslər qondarma qurumun "prezidenti" Araik Arutyunyanın Xankəndidəki "ofisinə" yaxınlaşaraq atəş açıblar. Hadisədən əvvəl bir qrup erməni onun "ofisinə" gəlib və Qarabağdakı vəziyyət barədə qızğın söhbət ediblər. Daha sonra ermənilər binadan çıxıb "ofisi" güllələbaran ediblər.

Araik Arutyunyan isə dünən istefası məsələsi ilə bağlı danışıb. Onun sözlərinə görə, qondarma rejimin "parlamentinin" dünənki növbədənkənar iclasında onun istefası məsələsi müzakirə olunub. Arutyunyan əlavə edib ki, yaxın günlərdə bu məsələyə daha dar çərçivədə baxılacaq və lazım gələrsə, istefa verəcək.

Göründüyü kimi, separatçılar artıq bir-birilərini qırmağa başlayıblar.

Bu arada Hayastan hakimiyyətinin son vaxtlar geniş şəkildə tirajladığı əsas mövzulardan biri də orduda gedən "islahatlar"dır. "Past" nəşri yazıb ki, Hayastan hakimiyyətinin nümayəndələri "islahatlar"la bağlı piar aparırlar və mümkün olan halda bu mövzuda fərqli fikirlər səsləndirirlər. Lakin indiki hakimiyyətin təmsilçiləri bu "islahatları" nə qədər tərifləməyə çalışsalar da, məsuliyyətsiz insanların davranışı, yolverilməzliyi nəticəsində insan təlefatları, intiharlar davam edir. Üstəlik, bunlar son vaxtlar daha da intensivləşib. Elə həftə yoxdur ki, qeyri-döyüş şəraitində ölüm olmasın. Ötən gün məlum olub ki, cənub istiqamətində yerləşən hərbi hissələrdən birində qeyri-döyüş şəraitində növbəti ölüm halları qeydə alınıb.

Xüsusilə rəsmi versiyaya görə, əsgərlərdən biri hələ dəqiqləşdirilməmiş şəraitdə əsgər yoldaşını öldürüb, sonra isə intihar edib. Təəccüblüdür ki, bir neçə gün əvvəl Andranik Koçaryan və təkcə "ordu islahatları"nın "xaç atası" yox, həm də bir sıra digər məmurlar da məhz həmin əraziyə gələrək fəxrlə fotolar paylaşıblar. Yeri gəlmişkən, bu qətldən bir gün əvvəl hərbi hissədə əsgəri elektrik cərəyanı vurması nəticəsində daha bir ölüm hadisəsi qeydə alınıb. Yəni hərbi ekspertlərin qeyd etdiyi kimi, hazırkı hökumətin ölümcüllüyü birbaşa nəzərə çarpır. Süni təsirlərə paralel olaraq insanların gözünə "toz üfürməklə" saxta imitasiyalar, gündəmlər yaradırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

***"LALEMDAN CORP" MMC-yə (VÖEN: 1905512101) məxsus möhür itdiyi üçün etibarsız sayılır.***


## ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**RAHİB VAQİF OĞLU SALMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Ağır Cinayətlər Məhkəməsinin kollektivi məhkəmənin hakimi
**RAHİB VAQİF OĞLU SALMANOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5458**
**Sifariş 2176**

**Qiyməti 40 qəpik**